www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 oktyabr 2016-cı il Cümə axşamı № 226 (6547) Qiymɘti 60 qəpik

**Xəbər**

**Bakıda dini sektaya qoşulan qadın 5 yaşlı oğlunu öldürdü**

yazısı səh.14-də

## İşğalçı ölkənin baş tutmayan sürpriz-şantajı

# SƏRKİSYANIN FİASKO OLAN ABŞ SƏFƏRİ - PUTİNİN İRƏVANA İSTANBULDAN APARDIĞI MESAJ

Rusiya lideri Ərdoğan və Əliyevlə son görüşlərinin təsiri altında sabah Ermənistana gedir; Kreml başçısının düşmən ölkəyə bir mesajı da Qarabağla bağlı ola bilər, əgər...




yazısı səh.5-də

## MTN generallarının ""Vosmoy bazarı" əməliyyatı"nın yeni şok detalları - qarşı tərəfdən ilginc açıqlamalar

**Sahibkar Salman Səfərov:** "Qardaşlarıma dəhşətli işgəncələr verdilər, onları 500 min dollar verib azad etdirdik; "Akif Çovdarov dedi ki, Eldar Mahmudov bazarın hamısını istəyir"

yazısı səh.7-də

**Gündəm**

### Murovdağ yüksəkliyindən Ermənistana xəbərdarlıq



Azərbaycan ordusunun komandanlığı təmas xətti boyu hərbçilərimizlə görüşdü, mühüm döyüş tapşırıqları verdi...

yazısı səh.11-də

### Referendum aktı qüvvəyə mindi - prezident sərəncam imzaladı

yazısı səh.2-də

### Azərbaycan Aşuranı qeyd etdi - heç bir insident qeydə alınmadı

yazısı səh.3-də

### Yeni konstitusiya dövründən gözləntilər- növbədənkənar seçkilər, kadr islahatları...

yazısı səh.4-də

### Putinin ömürlük prezident olması təklif edildi

yazısı səh.5-də

*Psixiatr:*

### "Maddi sıxıntılar insanların psixikasında ciddi narahatlıq yaradır"

yazısı səh.15-də

### Ateist molladan imtina vəsiyyəti etsə, buna əməl olunmalıdırmı...

yazısı səh.2-də

### ABŞ tarixinin qanadlı frazalarla zəngin prezident seçkisi...

yazısı səh.10-da

### Banklar bank olmayan kredit təşkilatlarına necə çevrilir...

yazısı səh.13-də

### Müstəqillik Günü təntənəli qeyd olunacaq

yazısı səh.4-də

### İstanbulda Qərbə qarşı ittifaqın əsası qoyuldu?

yazısı səh.13-də



### Əli İnsanov həbsxanadan xəbər göndərdi: "...Uğursuz şərləmədir"

yazısı səh.6-da



*Aynur Camalqızı:*

### "Müxalifətdən yaxşı heç nə gözləmirəm"

yazısı səh. 8 və 9-da



*Aqil Abbas:*

### "Bunu Ramiz Əzizbəylidən gözləməzdim"

yazısı səh.12-də



# Referendum aktı qüvvəyə mindi - prezident sərəncam imzaladı

**Prezident İlham Əliyev 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə sərəncam imzalayıb.**

Nazirlər Kabinetinə tapşırılıb ki, altı ay müddətində:

- 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının 1 - 29-cu hissələri ilə edilmiş dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Prezidentinə təqdim etsin;
- Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Azərbaycan Prezidentinə məlumat versin;
- mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Prezidentinə məlumat versin.

Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verəcək.



# Rusiya aviasiyasının Suriyada yerləşdirilməsi təsdiqləndi

**Rusiya Federasiya Şurası rus aviasiya qrupunun Hmeymim bazasında müddətsiz yerləşməsi ilə bağlı Rusiya və Suriya arasında imzalanan müqaviləni imzalayıb. Avropa.info xəbər verir ki, müqavilənin ratifikasiyasına 158 senator səs verib, bir nəfər bitərəf qalıb.**

Qeyd edək ki, Rusiya aviasiyasının Suriyada müddətsiz şəkildə yerləşdirilməsini müqaviləsini parlamentə prezident Putin təqdim etmişdi. Müqaviləni 7 oktyabrda Duma üzvləri təsdiqləmişdi.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Vidadi Zeynalov və digərlərinin cinayət işi məhkəməyə göndərildi

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sabiq Aparat rəhbəri Vidadi Zeynalov və digərlərinin cinayət işi məhkəməyə göndərilib.**



APA-nın məlumatına görə, cinayət işi üzrə ittiham aktı istintaq orqanı tərəfindən təsdiq olunaraq baxılması üçün oktyabrın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi yaxın günlərdə icraata veriləcək.

Cinayət işi üzrə nazirliyin strukturuna daxil olan "Aztelekom" MMC, "AzİnTelekom" MMC, "Azərpoçt" MMC, Məlumat Hesablama Mərkəzi və özəl şirkət "Optik Rabitə Tikinti və Quraşdırma" MMC-nin fəaliyyətində də mənimsəmə və israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və vəzifə saxtakarlığı faktları müəyyənləşib.

İş üzrə Beytulla Hüseynov, Anar Mustafayev, Emin Məmmədov, Bayram Vəliyevə və "Aztelekom" MMC-nin baş mühasibi Oktay Rüstəmova Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), Vidadi Zeynalova, həmçinin "AzİnTelekom" MMC-nin baş direktoru Cəlil Cəfərova, "Azərpoçt" MMC-nin baş direktoru Qəmbər Bəybalayevə və "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin direktoru Namazalı Məmmədova həmin məcəllənin 179.3.2 və 308.2-ci, MMC-nin baş mühasibi Səhrab Hümbətova isə 179.3.2, 308.2 və 313-cü maddələrdə nəzərdə tutulan ittiham elan edilməklə barələrində məhkəmənin müvafiq qərarları ilə həbs-qətimkan tədbiri seçilib.

# Ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir

**Azərbaycanda dini ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir.**

"Report"un xəbərinə görə, bununla bağlı "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişiklik ediləcək.

Milli Məclisin İnsan hüquqları komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan dəyişikliklər layihəsinə əsasən, dini ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir.

Dini ekstremist fəaliyyətlə məşğul olma dini qurumun ləğv edilməsinə səbəb olacaq.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Rusiya Türkiyə ilə viza rejiminin ləğvində maraqlıdır

**Moskva Türkiyə ilə viza rejimini ləğv etməyin tərəfdarı kimi çıxış edir. Avropa.info xəbər verir ki, bu açıqlama ilə Rusiya energetika naziri Aleksandr Novak çıxış edib. O bildirib ki, viza məhdudiyyəti ilk növbədə iki ölkə arasında daşınmaları gerçəkləşdirən nəqliyyat vasitələrinə tətbiq olunmalıdır. Qadağanın ləğvi iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə kömək edə bilər.**

Daha əvvəl Rusiya iqtisadi inkişaf naziri Aleksey Ulyukayev bəyan etmişdi ki, Türkiyə vətəndaşlarının Rusiya ərazisinə səfəri ilə bağlı viza rejiminin ləğvi təhlükəsizlik baxımından hələ tezdir.



# Leyla Yunus Taleh Bağırzadəyə dəstək məktubunda nə yazıb?

## Novella Cəfəroğlu: "Biz istərdik ki, ədalətli məhkəmə keçirilsin"

**Uzun zamandır ictimaiyyətdə barələrində heç bir məlumat dolaşmayan, mətbuata açıqlama verməyən və hazırda Avropada olan hüquq müdafiəçisi Leyla Yunus "Müsəlman Birliyi" Hərəkatının həbsdə olan sədri Taleh Bağırzadəyə və onun müavini Elçin Qasımova məktub ünvanlayıb.**

Ötən ilin 5 dekabr tarixində azadlığa buraxılan Leyla Yunus həmin zamandan etibarən Azərbaycanda baş verən heç bir ictimai-siyasi hadisələrə reaksiya verməyib, hər hansı bir mövqe ilə çıxış etmirdi.

İndi isə o, T.Bağırzadə yazdığı məktubunda bildirib ki, onun məhkəməsi insan haqlarının müdafiəsinə dair beynəlxalq ictimaiyyətin diqqətindədir: "Mən bu məktubu yazaraq Sizi- bütün dostlarımızı əmin edirəm ki, heç biriniz unudulmamısınız. Məhkum olunmuş 78 nəfər tərəfdarlarınızdan heç biri diqqətsiz qalmayacaq. Fəaliyyətini Avropada davam etdirən Sülh və Demokratiya İnstitutunda hazırda qanunları kobud şəkildə pozan hüquq-mühafizə orqanları əməkdaşlarının və hakimlərin siyahısını tərtib etmə işi gedir. Bu insanların, həmçinin işgəncələrə və siyasi motivlərlə həbs edilənlərin saxta cinayət ittihamlarına da aidiyyəti var.

Siyasi əmrlə, saxta ittihamlar əsasında hökm oxuyan heç bir hakim nəzərdən qaçmayacaq".

**Leyla Yunus məktubunun sonunda yazıb:** "İllər keçəcək və Nardaranda, hətta bütün Azərbaycanda küçələrə sizin adlarınızı verəcəklər".

Yoxa çıxmış L.Yunusun məhz Taleh Bağırzadə məsələsinə reaksiya verməsi maraq doğurur.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquq müdafiəçisi Novella Cəfəroğlu isə səslənən fikirlərə və ümumi prosesə öz prizmasından yanaşıb. O bildirib ki, əsas məsələ məhkəmənin açıq keçirilməsidir:** "Məhkəmə prosesi açıq keçirilsin, açıq şəkildə də hökm verilsin. Çünki biz bilək ki, hansı proseslər gedir. Bizim bu barədə məlumatımız yoxdur. Onların məhkəmələri bağlı qaydada keçirilir. İstərdik ki, ədalətli məhkəmə keçirilsin. Məlum olsun ki, onları nəyin üstündə, niyə tutublar. Bizim monitorinq qrupu ancaq siyasilərlə məşğuldur. Onlar İlqar Məmmədov, Əli İnsanov və digərləridir. Bu siyahıda 10-a yaxın adam var. Siyahımızada həmçinin jurnalistlər, bloggerlər də var. İslamçıların isə məsələsini bu cür qaldırırıq ki, onlara ədalətli məhkəmə keçirilsin. Biz də bilək ki, həmin şəxslər nəyin üstündə tutulublar".

**N. Cəfəroğlu bildirib ki, Nardaran hadisələri zamanı Taleh Bağırzadə həbs edilən zaman atışmalar da olub:** "Ona görə də dəqiq məlumatın olması əsas şərtdir. Bu atışmanın kimin tərəfindən olduğu, onların nə üçün belə bir işə qarışmaları və digər bu kimi detallar məlum olmalıdır. Əsas məsələ ədalətli məhkəmənin keçirilməsidir".

❑ Əli RAİS



# Mirzə Sakit molladan imtina etdi: "Mən öləndə"...

## Ateist dəfnini öncədən sifariş etsə, buna əməl olunmalıdırmı...

**"Vəsiyyətimdə yazmışam ki, mən öləndə mənim yas mağarıma, qəbrimin üstünə heç bir molla buraxılmasın". Bu sözləri hazırda Belçikada yaşayan, ateist düşüncəli şair Mirzə Sakit facebook-da yazıb. O, daha sonra qeyd edib: "40-80, 100 il yaşayasan, axırda səni şarlatan bir mollanın duası ilə basdırsınlar. And olsun ki, bundan böyük dərd tanımıram".**

Mirzə Sakitin bu cür vəsiyyəti sosial şəbəkə izləyiciləri tərəfindən maraqla qarşılanıb, onunla eyni fikirdə olduğunu bəyan edən şərhlər yazılıb.

Lakin bununla belə, ortalığa bir sıra suallar çıxır. Əgər bir ateist öz dəfnində molladan imtina edərsə, onun bu arzusunu reallaşdırmaq mümkündürmü?

**Dini ekspert Kənan Rövşənoğlu məsələyə bu cür aydınlıq gətirdi:**

"Bu məsələnin qanuni tərəflərini bilmirəm. Amma insan həyatı qədər, ölümünə də ixtiyar sahibidir. Yəni vəsiyyət edib, istədiyi şəkildə dəfn oluna bilər".

Digər ateist fikirli tanınmışlar bu cür vəsiyyət etməyi düşünürmü?

**Tanınmış köşə yazarı Zamin Hacı bu cür məsələlərə tolerant yanaşdığını bildirdi:** "Mən də o cür riyakar bir tədbirin keçirilməsini istəməzdim. Amma öləndən sonra bunun heç bir əhəmiyyəti qalmır. Bu, dirilər üçündür, yəni əslində qalanlar üçün keçirilir. Bu mənada dirilər üçün hansı metod ürək rahatlığı gətirirsə, onu da etsinlər. Yəni şəxsən mənim üçün heç bir əhəmiyyəti yoxdur.

Amma təbii ki, belə bir sistem Azərbaycanda olsaydı, ürək istərdi ki, o mərasimdənsə insan həyatını xilas etmək üçün orqanların bağışlanması olsun. Amma dediyim kimi, o məclis, sonra ora kimsə gələcək, nəsə oxuyacaq, danışacaq... bu, qalanlara təsəllidirsə, qoy etsinlər. Burada problem görmürəm. Mən belə məsələlərə tolerant yanaşıram".

**Müsavat başqanının müavini Tofiq Yaqublu isə qeyd etdi ki, bu məsələni daha çox mərhumun yaxınları həll edir:** "Mənim fərqli baxışlarım var. Mirzə Sakitin fikrinə gəldikdə isə hər kəsin haqqıdır ki, necə istəyir, o cür dəfn olunsun. Buna kiminsə müdaxilə etməyə haqqı yoxdur. Adam özü-özünü dəfn etmir, onu başqaları dəfn edir. Bu məsələni daha çox onun yaxınları, doğmaları həll edir. Sözsüz ki, burada vəsiyyətnamə də nəzərə alınır.

Şəxsən mən neçə hadisə görmüşəm ki, adam bu kimi vəsiyyət edir, lakin öldükdən sonra yaxınları yığışıb qərara gəliblər ki, yox, bu, yolverilməzdir. Lakin bir daha qeyd edirəm, hamı, dindar ateistin, ateist də dindarın inancına hörmətlə yanaşmalı və heç kəs heç kəsə qadağan edə bilməz ki, bu necə olmalıdır".

❑ Xalidə GƏRAY






# Azərbaycan Aşuranı qeyd etdi

## İnanclı insanlar ibadət yerlərinə toplaşdılar; "Təzəpir" məscidində qanvermə aksiyası keçirildi; İçərişəhər "Cümə" məscidinin dini icması Şəhidlər Xiyabanını ziyarət etdi

**Oktyabrın 12-də bütün ölkə ərazisində Aşura mərasimi keçirilib. Bakıda ibadət məkanlarında müşahidə aparan musavat.com saytının əməkdaşlarının verdiyi məlumata görə, səhər saatlarından başlayaraq insanlar məscidlərə axın edib.**

Nardaran qəsəbəsində Aşura günü bu il bir qədər fərqli şəkildə qeyd olunub. Ölkənin ən böyük ziyarətgahlarından biri olan Nardarandakı Rəhimə xanım ziyarətgahına yalnız bu qəsəbənin sakinləri gedə bilirlər. Nardaran qeydiyyatı olmayan vətəndaşlar isə qəsəbənin girişində qurulmuş postdan buraxılmayıblar.

Qeyd edək ki, Aşura günü ilə bağlı Nardarana çəkiliş üçün gedən "Yeni Müsavat" qəzetinin, eləcə də APA xəbər agentliyinin əməkdaşları da qəsəbəyə buraxılmayıb.

Digər Bakı kəndlərində Aşura mərasimlərinin keçirilməsinə müəyyən məhdudiyyətlər qoyulub.

Musavat.com xəbər verir ki, məscidlərdən kənarda dini ayinlərin yerinə yetirilməsinə, ehsan süfrələrinin açılmasına icazə verilməyib. Küçələrdə polislər gücləndirilmiş iş rejimində çalışıb, hərəkətə nəzarət edib.

Diqqəti çəkən məqamlardan biri də məscidlərdə mətbuat işçilərinin çəkiliş aparmasına qadağa qoyulması olubr. Buzovna kəndindəki Cümə məscidində çəkiliş apararkən məscidin işçiləri mətbuatın girişi ilə bağlı xüsusi təlimat olduğunu bildiriblər və içəridə çəkiliş aparılmamasını xahiş ediblər.

"Dünyanın hər yerində yaşayan azadxah və vicdanlı insanların iradəvi kədəri yaşatdıqları dönəmdir.

Əhli-beyt (ə) sevərlər Vətəni olan Azərbaycanımızın hər bir guşəsində İmam Hüseynin (ə) və qəhrəman silahdaşlarının Kərbəlada şəhid olmasının anım mərasimləri keçirilir. İçərişəhər "Cümə" məscidinin dini icması da bu münasibətlə silsilə tədbirlər həyata keçirib". Bu barədə "Cümə" məscidinin dini icmasından verilən məlumatda qeyd edilir ki,

Aşura günündə İçərişəhər "Cümə" məscidinin dini icması Şəhidlər Xiyabanını ziyarət edib. Ziyarət zamanı əzadarlıq mərasimi keçirilib, 20 Yanvar hadisələrində, Qarabağda şəhid olmuş həmvətənlərimizin ruhlarına dualar edilib, Quran ayələri oxunaraq şəhidlərimizin ruhlarına hədiyyə edilib.

Hacı İlqar İbrahimoğlu çıxış edərək Azərbaycan şəhidlərinin Kərbəla şəhidlərindən dərs aldığını vurğulayıb, bu əzadarlıq mərasimlərinin bir gün Ağdamda, Şuşada keçiriləcəyini bildirib. Ziyarət zamanı qədirbilən xalqımızın xoş gələcəyi, Qarabağımızın azad olması, vətən şəhidlərimizin Kərbəla şəhidləri ilə məşhur olmaları üçün dualar edilib. Mərasim "Fərəc" duasının oxunması ilə yekunlaşıb.

Aşura ilə əlaqədar Səhiyyə Nazirliyi və QMİ Aşura günündə 15 məsciddə qanvermə aksiyası keçirib.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə və Azərbaycan Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı da Aşura günü ilə əlaqədar "Təzəpir" məscidində qan verib.

"Report"un məlumatına görə, qanvermə aksiyasına ictimai xadimlər də qoşulub.




Allahşükür Paşazadə Aşura günü ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verib.

**A.Paşazadə jurnalistlərə bildirib ki, bu gün şəhid günüdür:** "Biz şəhidliyin nə olduğunu yaxşı bilirik. İmam Hüseyn Kərbəlada vətən, xalq yolunda şəhid oldu. Bizim də Qarabağ boyda dərdimiz var. Biz də xeyli sayda şəhid vermişik. Allahu təala şəhidlərimizə rəhmət eləsin! Aşura günü bizi sındırmamalıdır, əzməməlidir. Biz düşmənə qarşı daha sıx birləşməliyik".

**Onun sözlərinə görə, Azərbaycanda hər il qanvermə aksiyasında iştirak edənlərin sayı artır:** "Bu, ölkədə imanın, dinə olan münasibətin artmasının göstəricisidir. Bu gün dinindən, məzhəbindən asılı olmayaraq, hər kəs qanvermə aksiyasında iştirak edir. Əgər sovet dövründə ölkədə 17 məscid var idisə, bu gün 2000-dən çox məscid var. Bu da dövlətin dinə olan münasibətinin göstəricisidir. Bu gün ölkədə dindarlar üçün bütün şərait yaradılıb. Azərbaycanda Aşura günü qanvermə aksiyasının keçirilməsi dünyada çox bəyənilir. Hətta Türkiyə də Azərbaycanın bu təcrübəsindən istifadə edəcəyini bildirib. Bu gün dünyanın bir sıra ölkələrində qanvermə aksiyası keçirilir".

"Ölkənin dini mərasimlər keçirilən heç bir məscidində insident qeydə alınmayıb".

APA-nın məlumatına görə, bunu Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib. O qeyd edib ki, hansısa xırda hadisələr baş verə bilər. Lakin bu il Aşura ilə bağlı tədbirlər tam qanun çərçivəsində, sakit şəraitdə keçirilib.

**Komitə sədri bildirib ki, Azərbaycan xalqı bütün dini ayinlərə hörmətlə yanaşır:** "Bu, bizim xalqımızın yüksək mədəniyyət və intellekt sahibi olduğunu göstərir. Azərbaycanda bütün dini təriqətlərdən olan insanlar qanvermə aksiyasında iştirak edirlər. Bu, ölkəmizin dini tolerantlıq və multikultiralizm nümunəsidir".

# Futbolçu Cavid Hüseynov azadlığa buraxıldı

**Bakı Apelyasiya Məhkəməsində ann.tv saytının əməkdaşı Rasim Əliyevin döyülərək öldürülməsi işi üzrə həbs edilən "Qəbələ" klubunun sabiq kapitanı Cavid Hüseynov barəsində olan hökmdən verilən apelyasiya şikayəti təmin olunub.**

Qeyd edək ki, Bakı şəhər sakini, ann.tv-nin əməkdaşı Rasim Məmmədəli oğlu Əliyev 2015-ci ilin avqust ayının 8-də paytaxtın Bayıl qəsəbəsi ərazisində bir qrup şəxs tərəfindən döyülərək çoxsaylı bədən xəsarətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib və avqustun 9-da orada vəfat edib. Bununla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Faktla bağlı Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Kənan Mədətov və Samir Mustafayev tutulublar.

Məhkəmənin hökmü ilə E.İsmayılov 13, A.Əliyev 12 il 6 ay, C.Məmmədov 11 il, S.Mustafayev və K.Mədətov 9 il müddətinə azadlıqdan məhrum edilib.

Eyni zamanda "Qəbələ" klubunun sabiq kapitanı C.Hüseynov da R.Əliyevin döyülərək qətlə yetirilməsi ilə əlaqədar açılan cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb. C.Hüseynovun bibisi oğlu E.İsmayılovun təşkilatçılığı ilə ağır cinayətin hazırlanmasını bilərək bu barədə xəbər verməməsi, cinayətin törədilməsindən sonra isə qabaqcadan vəd etmədən onun gizlədilməsinə yönələn hərəkətlərə yol verməsində əsaslı şübhələr olduğundan ona Cinayət Məcəlləsinin 307.1 (ağır cinayətin hazırlanmasını və ya törədilməsini bilərək həmin cinayət barəsində xəbər verməmə) və 307.2-ci (qabaqcadan vəd etmədən ağır cinayəti gizlətmə) maddələrində nəzərdə tutulan ittiham elan olunub. May ayının 31-də Səbail Rayon Məhkəmənin hökmü ilə C.Hüseynov 4 il müddətinə azadlıqdan məhrum edilib. Qərardan narazı qalan C.Hüseynov apelyasiya şikayəti verib.



Xatırladaq ki, oktyabrın 16-da Bakı Apelyasiya Məhkəməsində hakim H.Əhmədovun sədrliyi ilə keçirilməli olan proses təxirə salınıb. Buna səbəb C.Hüseynovun vəkili A.Məmmədovun ilkin qərardaddan kasasiya şikayəti ilə Ali Məhkəməyə müraciət etməsi olub. Daha sonra C.Hüseynov kasasiya şikayətini geri götürüb.

# Ölkəni bürüyən matəm havası



**Xalid KAZIMLI**

**Dünən Aşuraydı, matəm idi. İslam peyğəmbərinin nəvəsi İmam Hüseynin və onun ailə üzvlərinin qətlinin növbəti ildönümünü qeyd edən minlərlə insan məscidlərdə keçirilən təziyə məclislərində toplaşmışdılar.**

Bu il qələbəlik keçənilkinin yarısı qədər də deyildi. Hiss olunurdu ki, hakimiyyətin həyata keçirdiyi preventiv tədbirlər öz nəticəsini verib, minlərlə insan bu matəmi ictimai toplantı yerlərində yox, öz evlərində keçirməyi üstün tutub.

Hər kəsə aydındır ki, 14 əsr öncə baş vermiş bu tarixi hadisənin ildən-ilə artan bir qələbəliklə keçirilməsi, hər il faciənin ilahiləşdirilməsi təmayülünün qarşısı bu il inzibati resurslar hesabına alındı.

Əgər təziyə məclislərinə qatılan insanların meydanlarda zəncir vurmaqdan, sinə döyməkdən, baş çərtməkdən imtinası maarifçilik işi əsasında baş tutsaydı, bu, başqa məsələ demək olardı. Nə yazıq ki, minlərlə insan bu hərəkətlərdən etdiklərinin mənasızlığını anladıqları üçün yox, hökumətdən çəkindikləri üçün imtina etdilər.

Bir daha sübut olundu ki, dini-ruhani sektor özbaşına qoyulduqda, boş buraxıldıqda bir-birinə zidd təriqətlər o boşluqları asanlıqla doldurur, böyük təbliğat-təşviqat mexanizmi quraraq kütləviləşir, üstünlük qazanmağa çalışırlar, amma nəzarət olduqda, radikal çağırışlara, çıxışlara imkan verilmədikdə, situasiya daha idarəolunan hala gəlir.

Aşuranın təşkili ilə bağlı ölkəmizdə normal olmayan hallardan biri də Kərbala çölündə şəhid olanlara İran dövlətinin rəsmi kursunun prizmasından yanaşılmasıdır. Hər il məhərrəm və səfər aylarında ölkəmizin cənub bölgələri de-fakto İranın əyalətlərinə çevrilir, İran saatı ilə işləyir, İrandan yayılan elektron medianın təsir dairəsinə girir, hətta İrandan gələn matəm musiqisi dinləyir.

Aydın məsələdir ki, 14 əsr davam edən və artıq mədəniyyət hadisəsinə çevrilmiş bu təziyə ənənəsini inzibati resurslarla unutdurmaq mümkün deyil. Ancaq yaxşı olardı ki, bundan sonra bu cür dini səciyyəli təziyə məclisləri təşkil olunarkən hər hansı bir xarici dövlətin rəsmi siyasi kursunun tələb etdiyi qaydalar tətbiq edilməsin, o dövlətlərdən gələn emissarlar burada moderatorluq, rejissorluq etməsinlər.

Daha bir problem matəmin müddəti ilə bağlıdır. Bizim xalqımızın qan yaddaşına həkk olunmuş ən faciəvi günümüzün, ən böyük matəmimizin ömrü bir gündür - hər il yanvarın 20-də qeyd edirik. Dünyada elə bir mədəni dövlət yoxdur ki, onlarda tarixi faciələrin ildönümündə matəm bir gündən artıq olsun. ABŞ-da da elədir, İsraildə də, Almaniyada da, İngiltərədə də. Hətta il on iki ay ağlaşma quran, öz faciəsini ilahiləşdirib ərşə-gürşə çıxaran ermənilər də yalnız aprelin 24-də işi-gücü bir kənara qoyub matəm tədbirləri keçirirlər.

Bizdə isə matəm havası 40 gün, əslində isə düz iki ay sürür. İslam təqviminin iki ayı - məhərrəm və səfər ayları bütövlükdə Kərbəla faciəsinə həsr olunur.

Bildiyiniz kimi, bu aylarda şənliklər keçirilmir, toy-nişan büsatları qurulmur. Ölkənin iaşə industriyası əsasən dayanır. Bəzən elə qələmə verirlər ki, guya bu, iki aylıq fasilə yalnız müğənnilərə, çalğıçılara, bir də şadlıq evlərinin sahiblərinə ziyandır.

Elə deyil. Bu iki ayda dövlət büdcəsinə milyardlarla manat həcmində vergi daxil olmur. Onsuz da aylıq qazancı çox olmayan on minlərlə adam (günəmuzd işləyən ofisiantlar, aşpazlar, şadlıq evlərini ərzaq və tərəvəzlə təchiz edənlər, "toy sənayesi"nin digər qara fəhlələri) evlərinə çörək apara bilmir, maddi sıxıntı çəkirlər.

Bu durum sahibkarlara o qədər də ziyan deyil. Toy edənlər onsuz da sonrakı aylarda toylarını edəcək, şadlıq evlərinə ətək-ətək pul ödəyəcək, beləcə, sahibkarların matəm aylarında düşdüyü zərər kompensasiya olunacaq. Amma "toy fəhlələri"nin cibinə 5 manat qoyan olmayacaq.

İqtisadçılar əllərindəki statistik göstəricilərə dayanaraq, bu iki ayda dövlətin və camaatın düşdüyü maddi ziyanı, itkiləri hesablayıb ortaya ciddi nəticələr qoya bilərlər.

İnkişaf etmək istəyən dövlət bayram və qeyri-iş günlərinin sayına görə Avropanın firavan dövlətləri ilə yarışa çıxmamalıdır. Onlar iqtisadiyyatlarını qurublar, cəmiyyətin bütün sferalarında işlək mexanizm əmələ gətiriblər, hər şey saat kimi işləyir. Biz isə yeni ildə, Novruzda, o biri rəsmi, milli, dini bayramlarda uzun müddətli tətillər etməklə kifayətlənmir, ildə iki ay da ölkənin ən mənfəətli industriyasını qapadırıq.

Uzun sözün qısası, qoy bayramlarımız da bir gündən artıq olmasın, matəmlərimiz də. İşləmək, çalışmaq, inkişaf etmək gərəkdir.

YENİ MÜSAVAT
N 226 (6547) 13 oktyabr 2016

**Konstitusiyaya edilən dəyişikliklərlə bağlı ümumxalq səsverməsinin nəticələri Mərkəzi Seçki Komissiyası tərəfindən oktyabrın 11-də təsdiqləndikdən sonra ölkə yeni dəyişiklik edilmiş konstitusiya dövrünə daxil olub. Yeni konstitusiyanın tələblərinə görə, hakimiyyət idarəçiliyi sistemində vitse-prezidentlik institutu tətbiq ediləcək. Ölkədə rəsmi ikinci şəxs bundan sonra baş nazir yox, birinci vitse-prezident olacaq. Vitse-prezidentlərin isə sayının iki olacağı deyilir. Birinci vitse-prezidenti və vitse-prezidentləri ölkə prezidenti təyin etməlidir.**

# Yeni konstitusiya dövründən gözləntilər - növbədənkənar seçkilər, kadr islahatları...

## Müxalifət düşərgəsinin də gözləntisi yeni prezident və parlament seçkilərinin keçirilməsi, idarəetmədə dəyişikliklərin olacağıdır

Son məlumatlara görə, növbədənkənar prezident seçkilərinə gediləcəyi halda böyük ehtimalla vitse-prezidentlərin təyinatı məhz seçkilərdən sonra həyata keçirilə bilər. Referendum təyin edildəndən sonra vitse-prezident vəzifələrinə, əsasən də birinci vitse-prezident postuna kimin təyin ediləcəyi barədə mediada müxtəlif informasiyalar, versiya və ehtimallar irəli sürülməkdədir. İndiyə qədər daha çox adı hallanan şəxslər Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) sədri İnam Kərimovun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun və baş nazir Artur Rasi-Zadənin adı birinci vitse-prezident vəzifəsinə namizəd olaraq mediada çəkilib.

Yeni başlanan dövrdə kadr islahatlarının da olacağı iddia edilir. Vitse-prezidentlik institutunun yaradılması ilə bəzi nazirlərin vəzifəsindən gedəcəyi barədə də iddialar güclənir. Vitse-prezidentlik institutunun təsis olunması ilə bir sıra köklü dəyişikliklər olacağı da gözlənilir.

Açıqlamalarda və məlumatlarda qeyd edilir ki, bu ilin sonuna kimi ölkə idarəetməsində inqilabi səviyyədə dəyişikliklər, islahatların şahidi olacağıq.

İqtisadi və siyasi islahatlar yeni prezident seçkilərini də gündəmə gətirib. Məlumdur ki, yeni konstitusiya dəyişikliyi ilə vitse-prezident, birinci vitse-prezident institutu təsis olunub və bu, yeni bir situasiya yaradıb. Azərbaycanda növbəti prezident seçkilərinə təxminən iki il müddət qalır. Parlament seçkiləri isə bir il öncə keçirilib. Lakin konstitusiyadakı yeni dəyişikliklər prezidentə yeni prezident və parlament seçkilərinin keçirilməsi barədə sərəncam vermək səlahiyyəti verir. Xəbərlərdə bildirilir ki, növbədənkənar prezident seçkilərinin bu ilin dekabrında, parlament seçkilərinin isə gələn ilin martında, yaxud hər iki seçkinin dekabrda eyni gündə keçirilməsi istisna deyil.




**Milli Məclisin deputatı Vahid Əhmədov hesab edir ki, vitse-prezidentlərdən biri Qarabağla məşğul olmalıdır. Bu, beynəlxalq aləmdə Azərbaycan üçün çox əhəmiyyətlidir. Digər tərəfdən, vitse-prezidentlik statusunun dövlət başçısı ölkədə olmadıqda onu əvəz etməsi həm də maraqlı məsələdir. Vahid Əhmədov Nazirlər Kabinetinin saxlanılıb-saxlanılmaması məsələsinə də toxunub:** "Nazirlər Kabinetinin saxlanması doğru addımdır. Çünki bu, işlək orqandır. Ola bilər ki, vitse-prezidentlik statusundan 5 il sonra Nazirlər Kabineti buraxılsın. Hər halda, hər şey vitse-prezidentlik institutundan asılı olacaq. Artıq Azərbaycanda ciddi islahatlara start verilib. İqtisadi, struktur islahatları ilə bağlı ciddi işlər gedir. Eyni zamanda kadr islahatları da aparılmalıdır. Kadr islahatlarının aparılması çox ağır və çətin məsələ olduğundan prezident qərar verib ki, referendum yolu ilə belə bir institut yaradılsın və müəyyən dəyişikliklər edilsin. Əsas odur ki, yeni kadrlar cəmiyyət tərəfindən qəbul edilsin. Digər gözləntilərə gəlincə, baş nazirin müavinlərinin sayı azaldılmalıdır. Baş nazirin 6 müavinə ehtiyacı yoxdur. Ola bilər ki, müavinlərin sayı azaldılsın. Ola bilər ki, müavinlərin səlahiyyətləri vitse-prezidentlərə verilsin. Ümumiyyətlə, Nazirlər Kabinetinin strukturu dəyişilməlidir. Çünki o, sovet vaxtında qurulmuş strukturdur. Struktur yenidən işlənməli, müasir tələblərə, indiki dövrə, bazar iqtisadiyyatına uyğun, çevik islahatlar aparan qurum yaradılmalıdır".

Müxalifət düşərgəsinin də gözlənitisi yeni prezident və parlament seçkilərinin keçirilməsi, idarəetmədə dəyişikliklərin olacağıdır.

**ADP sədrinin müavini Taliyət Əliyev bildirdi ki, bundan sonra gözləntiləri ölkədə növbədənkənar prezident və parlament seçkilərinin keçirilməsidir:** "Bir halda ki, yeni konstitusiya qüvvəyə minib və orada ölkənin köhnə qaydalarla müəyyən müddətə idarə olunması ilə bağlı heç bir keçid müddəaları yoxdur, onda yeni konstitusiya ilə ölkə idarə olunması üçün prezident və parlament seçkilərinin keçirilməsi labüddür. Bunu həm konstitusiya, həm də bu konstitusiya dəyişikliklərini hakimiyyət üçün zərurətə çevirən hallar diktə edir. Bu baxımdan, növbəti mərhələdə partiya olaraq gözləntilərimiz bundan ibarətdir".

**AG Partiyanın sədri Tural Abbaslı isə dedi ki, əgər hakimiyyət məlum tələskənliklə konstitusiya dəyişikliyinə getdisə, deməli, bundan sonra planda növbədənkənar prezident və parlament seçkiləri dayanır:** "Biz növbədənkənar seçkilərə gediləcəyini gözləyirik. Partiya olaraq keçiriləcək seçkilərdə iştiraka hazırlaşacağıq. Hakimiyyət klassik müxalifətin passivliyindən və zəifliyindən istifadə edəcək və ənənəvi formada prezident seçkisi keçirəcək, 7 illiyə iqtidarda qalmağı təmin edəcək. Bu dəyişikliklərin idarəetmədə dəyişikliklərə gətirib çıxaracağını, dəyişikliklərin müsbət, yoxsa mənfi effekt verəcəyini isə yaxın zamanlarda biləcəyik. Gözləntimiz budur ki, yaxın günlərdə növbədənkənar prezident və ola bilsin parlament seçkiləri təyin ediləcək. İlkin fikrimiz budur ki, seçkidə iştirak edək. Bu, AG Partiyanın iştirak etdiyi ilk seçki olacaq".

❑ **Etibar SEYİDAĞA**

# Müstəqillik Günü təntənəli qeyd olunacaq

## Fərəc Quliyev: "Müstəqillik aktına imza atan insanların bir çoxlarının vəziyyətləri pisdir"

**Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü haqqında sərəncam imzalayıb. Sərəncamda Azərbaycanın müstəqillik tarixinə də geniş yer verilib: "Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 25 il keçir.**

Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür.

Ötən 25 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir",-deyə, sərəncamda bildirilib.



Qeyd edək ki, artıq müstəqilliyimizin 25-ci il dönümü ilə bağlı ölkə ərazisində müxtəlif tədbir və konfranslar keçirilməkdədir.

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirib ki, 25-ci il dönümü ilə əlaqədar müxtəlif səpkidə tədbirlər keçiriləcək:** "Tədbirlər həm bölgələrdə, həm də paytaxtda baş tutacaq. Bununla bağlı dövlət proqramı var. Biz də dövlət proqramına uyğun olaraq tədbirlərimizi keçirəcəyik".

Oktyabrın 17-də saat 15:00-da "Park İnn" hotelinin konfrans zalında istiqlalçı deputatlar dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü ilə bağlı tədbir keçirəcəklər.

**"Yeni Müsavat"a danışan istiqlalçı deputat Fərəc Quliyev bir sıra problemlərə də toxunub. O bildirib ki, müstəqilliyimizlə bağlı məsələyə bir qədər də ciddi yanaşılmalıdır:** "Müstəqillik aktına imza atan insanların bir çoxlarının vəziyyətləri pisdir. Ya xəstəlikləri var, yaxud da digər bu kimi problemlərdən əziyyət çəkirlər. Təklif etmişdik ki, onlara kömək edilsin, imtiyazlar verilsin. Bir çox ölkələrdə bu kimi şəxslər üçün xüsusi imkanlar müəyyən olunub. Onlara təltiflər olunub. Hətta bəzi ölkələrin parlamentlərində səsvermə hüquqları olmasa da iştirak edib, təkliflər verirlər. Məncə, bizdə də məsələyə bu cür yanaşılmalıdır. Bizim bir qismimiz parlamentdə təmsil olunuruq. Ancaq bir çox istiqlalçı deputatların vəziyyəti gerçəkdən də çox pisdir. Çox arzu edirəm ki, onlara da diqqət edilsin. İkinci bir tərəfdən, o dönəmin tarixinin daha ciddi araşdırılması, həmin zamanda baş verən hadisələrin daha yaxşı işıqlandırılması, tədbirlərin görülməsi çox vacib şərtdir. Məncə, cəmiyyətdə barış üçün istiqlalçı deputatların imkanlarından istifadə etməyə dəyər".

**Deputat bildirib ki, Müstəqillik Gününü çox təntənəli şəkildə qeyd etmək, əhəmiyyətli hadisəyə çevirmək lazımdır:** "Məncə, bu gün bizdə layiq olduğu səviyyədə qeyd olunmur. Ancaq bütün dövlət başçıları ölkə başçısını və onun timsalında dövləti məhz Müstəqillik Günündə təbrik edirlər. Ölkənin bundan gözəl günü ola bilməz. Dünyanın istənilən ölkəsində, o cümlədən Azərbaycanda müstəqillik bir günün içində meydana gəlmir. Bu tarixi bir hadisədir və əlbəttə, Azərbaycan da müstəqilliyini qazanandan sonra çox keşməkeşli dövr yaşadı. Müstəqilliyin tarixi olur, bir zamanda bu, qeyd olunur. Ancaq müstəqilliyin qorunma tarixi olmur. Bu, əbədi olaraq qorunmalıdır. Eyni zamanda ərazi bütövlüyünü, atributları da qorumaq lazımdır. Çox təəssüf ki, biz indiyə qədər ərazimizin 20 faizinin müstəqilliyini təmin edə bilməmişik. Hesab edirəm ki, müstəqillik qazandıqdan sonra BMT-nin tanıdığı ərazilər daxilində beynəlxalq güclərin də ölkəmizin ərazi bütövlüyünün təminatında ciddi səyləri yoxdur. İndiki vəziyyətlə də biz təbii ki, razılaşa bilmərik. Ümumilikdə götürəndə isə ölkəmiz ötən dövr ərzində özünün elementlərini ortaya qoya bilib. Bu gün bizim güclü ordumuz, iqtisadiyyatımız var".

❑ **Əli RƏİS**

# İşğalçı ölkənin baş tutmayan sürpriz-şantajı

**Ermənistan prezidenti Serj Sərkisyanın oktyabrın 9-da başlayan ABŞ səfəri başa çatıb. Məlumatlara görə, o, Nyu-Yorkda Ermənistan hökumətinin özünün təşkil elədiyi (!) investisiya forumunda çıxış edib. Tədbirdə məqsəd işğalçı ölkəyə Amerika, Qərb sərmayələrini cəlb eləməkdir. Əslində isə hədəf - növbəti dəfə dilənmək, Amerika ermənilərinin vasitəsilə "fitrə" yığmaqdır. İşğalçı ölkədə iqtisadiyyat varmı ki, ona kimsə sərmayə də qoysun?**




## Sərkisyanın fiasko olan ABŞ səfəri - Putinin İrəvana İstanbuldan apardığı mesaj

### Rusiya lideri Ərdoğan və Əliyevlə son görüşlərin təsiri altında sabah Ermənistana gedir; Kreml başçısının düşmən ölkəyə bir mesajı da Qarabağla bağlı ola bilər, əgər...

Bu və digər səbəblərdən simptomatikdir ki, Sərkisyanı bu dəfə Amerikada heç it yerinə də qoymayıblar. Hətta erməni analitikləri onun səfərini uğursuz, fiasko hesab edir. Əlbəttə ki, fiaskodan başqa nə ola bilər, əgər onu da nəzərə alsaq ki, Ermənistan, sadəcə, Rusiyanın geridə qalmış quberniyalarından biridirsə.

O da var ki, Sərkisyan dəri-dən-qabıqdan çıxsa belə, işğalçı ölkədə xarici sərmayələr üçün ideal şərtlər olsa belə, Moskva Qərb amilinin forpost ölkədə güclənməsinə imkan verməz - hər hansı şəkildə. Rusiya hətta qonşu İranın Ermənistanla iqtisadi, energetik sahədə əməkdaşlığının güclənməsinə qısqanc yanaşır, o ki ola ABŞ-ın, Avropa Birliyinin Ermənistana maliyyə-iqtisadi təsir vasitələri əldə eləməsinə.

Hər şey qıraqda, ortada həll olunmamış Qarabağ ixtilafı, Azərbaycanla müharibə məsələsi var ki, Qərb investorları bu amili də görməzlikdən gələ bilməzlər.

***

Bu xüsusda Sərkisyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) 14 oktyabr İrəvan toplantısı ərəfəsi və İstanbulda prezidentlərin *(Putin, Ərdoğan, Əliyev)* üçlü görüşü fonunda qəfil ABŞ səfəri daha çox özünətəsəlli, bir az da Rusiyaya uğursuz sürpriz, onu ABŞ-la şantaj etmək təsiri bağışlayır. O Rusiya ki, onun prezidenti Vladimir Putin sabah İrəvana gedəcək. O Putin ki, İrəvana prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevlə İstanbul görüşündən cəmi bir neçə gün sonra yollanır. Yəni İrəvana "əliboş" yox, müəyyən mesajlarla gedir.

Hər necə olmasa, Rusiya liderinin uğurlu Türkiyə səfəri, İstanbulda imzalanan tarixi anlaşmalar Kremlin xarici siyasətdə Azərbaycan da daxil, türk faktoruna nə dərəcədə önəm verdiyini bir daha ortaya qoyub. Sərkisyanın ABŞ-a uğursuz reveransı ilə bu amilin Rusiya üçün əhəmiyyətini azaltmaq əlbəttə ki, mümkün deyil.

Burdaca yada salaq ki, Ərdoğanın son Peterburq səfəri zamanı Türkiyə-Rusiya-Azərbaycan formatı barədə irəli sürdüyü təklif öz aktuallığını itirməyib. Yeri gəlmişkən, Putinin İstanbul səfəri Türkiyə-Rusiya əlaqələrinin gözlənildiyindən də sürətlə inkişaf etdiyini, Ankara və Moskvanın əksər məsələlərdə anlaşma içində olduğunu nümayiş etdirdi. İki supergücün yaxınlaşması və anlaşma içində olması isə erməniləri həmişə narahat edib - xüsusən də Qarabağ məsələsinə görə.

Odur ki, İrəvana, faktiki, İstanbul görüşlərinin təsiri altında yollanacaq Vladimir Putinin Ermənistan rəhbərliyinə bəzi çatdırışlarının olacağı istisna deyil. Bu mesajların konkret nədən ibarət olacağı dəqiq bilinmir. Yəqin ki, çatdırışlar bağlı qapılar arxasında ediləcək. Ehtimal ki, əsas mesaj bu olacaq ki, Ermənistan özünün iqtisadi-siyasi xilasını, xoşbəxtliyini okeanın o tayında yox, burada - regionda axtarsın, ora-bura boylanmasın.

***

Ermənistan isə ara-sıra öz dəyərini Rusiya qarşısında qaldırmaq üçün ara-sıra belə gedişlər edir, "iki stul"da oturmağa çalışır. Təzəlikcə İrəvanın Avropa Birliyi ilə yeni əməkdaşlıq sənədi imzalamaq niyyətinə düşməsi də eyni qəbildən manevrlərdir. Təbii ki, Moskva buna heç vaxt imkan verməz. Bunu İrəvanda da yaxşı bilirlər.

Amma qarşılığında İrəvanın Rusiyadan yenə nəsə qoparmaq istəyi istisna deyil - hərçənd, Moskva erməniləri artıqlaması ilə öz yaxşılığını edib və edir: Dağlıq Qarabağı, digər Azərbaycan ərazilərini işğalda saxlamaqda kömək edir, Ermənistanın iqtisadi cəhətdən ayaqda durmasını, əhalisinin acından ölməməsini təmin edir, onun Türkiyə və İranla sərhədlərini qoruyur, güzəştli qiymətlərə, bəzən isə havayı silahlar verməklə ordusunun Azərbaycan silahlı qüvvələrindən geri qalmamasına çalışır, bütövlükdə Ermənistan adlı saxta dövlətin mövcudluğunun əsas qarantı rolunda çıxış edir. Başqa hansı yaxşılıq olmalıdır ki, ermənilər naşükürlük eləməsin?..

***

Doğrudur, İstanbulda Qarabağ mövzusu diqqətdə olmayıb. Ancaq istisna deyil ki, qapalı təmaslar zamanı bu mövzuya da toxunulub. Dağlıq Qarabağ məsələsi diqqət mərkəzində olmasa belə, yuxarıda vurğulandığı kimi, İstanbul görüşlərində türk amilinin Rusiya üçün önəmi bir daha qabarıq şəkildə üzə çıxıb ki, bu da xırda məsələ deyil. Cırtdan Ermənistan üçünsə böyük və ciddi məsələdir. Eyni zamanda mesajdır.

Yaxşı olar ki, Kreml başçısının bir mesajı da Ermənistanı Qarabağ məsələsində ağıllandırmaqla bağlı olaydı. Elə bir mesaj ki, müharibədən qaçmaq üçün İrəvanı konstruktiv mövqe tutmağa vadar eləsin. Hər halda, böyük müharibə Kremlə sərf eləmir. Ən azından ona görə ki, inkişafda olan Ankara-Moskva münasibətləri, on milyardlarla dollarla ölçülən böyük iqtisadi-enerji layihələri o zaman böyük risk altına düşə bilər.

**Cırtdan Ermənistana görə dəyərmi?**

**❑ Analitik xidmət**



## Putinin ömürlük prezident olması təklif edildi

**"Milli komitet+60" təşkilatının fəalları hesab edirlər ki, Rusiyanı izolyasiyadan yalnız Vladimir Putinə fövqəladə səlahiyyətlərin verilməsi xilas edə bilər.**

Avropa.info xəbər verir ki, təşkilat üzvlərinin fikrinə görə, prezidentə iki müddətdən çox seçilməyə imkan verməyən maddəni konstitusiyadan çıxarmaq lazımdır.

"Bizim rejimin avtoriteti barədə dünyaya car çəkməyin zamanı gəlib, Vladimir Putinə fövqəladə səlahiyyətlər və sərhədsiz manevr imkanları verilməlidir" - təşkilat üzvləri belə deyir.

"Milli komitet+60" Kremlə yaranan təhlükənin qarşısını almaq üçün təklif edib ki, məmurlar 10 gün ərzində xaricdə yaşayan qohumlarını ölkəyə gətirsinlər. Bunu onunla əsaslandırırlar ki, məmur qohumları Qərbin şantaj və təxribatına məruz qala bilər.

## Azərbaycan Türkiyə ola bilmədi...



**Hüseynbala SƏLİMOV**

**Dərindən fikirləşəndə hər şeyin arxasında həmişə enerji maraqları dayanıb. Bunu deməklə yeni heç nə "kəşf" etmirəm, sadəcə, bir azacıq unudulan məqamları yada salmaq istəyirəm.**

Bəli, axtarsan, hər bir etnik və yaxud da ki, ərazi münaqişəsinin arxasında ciddi geosiyasi və xüsusən də geoiqtisadi, ələlxüsus da enerji maraqları dayanır...

Ona görə də Türkiyədə keçirilən son enerji sammitindən yazanda ilk öncə gərək qlobal enerji məsələləri ilə bağlı məqamları qeyd edəydim...

Məsələn, Rusiyanın Suriyada nə işi var axı? Aydındır ki, Suriyaya müdaxilə etməklə o, Ukrayna problemini, xüsusən də Krımın ilhaqını arxa plana keçirmək istəyir - məsəl var, deyirlər ki, əgər siyasətdə bir problemi unutdurmaq istəyirsənsə, başqa bir yerdə problem yarat, başqa bir yerdə problem ol! Suriyaya müdaxilə etmək Rusiyaya həm də bunun üçün lazım idi...

Amma bu, hamısıdırmı? Təbii ki, yox. İran körfəzinin isti sularına çıxmaq Rusiyanın çoxdankı arzusudur, çünki bura neft-enerji hövzəsidi, kim bu hövzəyə çıxış əldə edibsə, o, dünya iqtisadi konyunkturasını idarə etmək üçün imkan qazanıb. Elə ABŞ da eyni motivlər və yaxud da məntiq idarə edir. Yoxsa düşünürsünüz ki, ABŞ siyasətçiləri və yaxud da politoloqları bura sadəcə, bir amal, bir məqsəd üçün - çox hörmətli C.Şarpın politoloji konsepsiyalarını təcrübədə sınamaq və elə həqiqətən də ərəb qardaşlara azadlıq gətirmək üçün gəliblər?!..

Əlbəttə ki, belə deyil. Bir daha deyirik ki, Yaxın Şərq enerji hövzəsidir və ABŞ da ona görə buradadır, Rusiya da ona görə bura can atır...

Bütün bunları niyə deyirəm? Lap əvvəldə ərz etdim ki, gərək Türkiyədəki sammitdən danışanda öncə qlobal enerji məqamlarına diqqət yetirəydim. Amma nə edim? Məni daha çox başqa məqam düşündürür və məşğul edir. Elə hey fikirləşirəm ki, görən, sammit zamanı Türkiyə və Rusiya prezidentləri Qarabağ problemi ilə bağlı kəlmə kəsməyiblər ki? Ola bilsin, xarici jurnalistlər də eyni sualı Suriya ilə bağlı verirdilər, amma mənə Suriya yox, Qarabağ lazımdır...

Təmaslar çox isti görünürdü. İstər Rusiya və Türkiyə, istərsə də Azərbaycan və Türkiyə arasında. Amma bu, mənim heç könlümü açmır, əksinə, bir az da əndişələndirirdi. Səbəb?..

İndi deyəcəm. Təkcə ona görə yox ki, Qarabağla bağlı heç nə eşitmədim. Sadəcə, Türkiyə hakimiyyətinin davranışına baxanda bir sual məni heç cür tərk etmir. O sual da budur ki, görən, Türkiyə kimin dostudur?..

Cəmiyyət olaraq çoxdandır Türkiyədən heç bir impuls almırıq. Sanki Türkiyədə də unudublar ki, hər bir ölkədə hakimiyyətlər olduğu kimi, cəmiyyətlər, hətta müxalif insanlar da var. Rusiyanı anlayıram, onları bu məsələ qətiyyən narahat etmir, çünki Azərbaycanda hakimiyyətlə cəmiyyət, hakimiyyətlə müxalifət biri-biri ilə nə qədər yadlaşsa, biri-biri ilə nə qədər qeyri-səmimi rəftar etsə, bu, Rusiya üçün daha yaxşıdır. Bəs o halda Türkiyəyə nə olub?..

Etiraf edirəm ki, şəxsən mənim üçün "qardaş Türkiyə" ifadəsi getdikcə məzmunsuzlaşır, dəyərini itirir və mən daha əvvəlki səmimiyyətlə bunu yaza bilmirəm. Təbii, burada indiki Türkiyə hakimiyyətinə münasibətim də az rol oynamır...

Bir daha deyirəm ki, Türkiyə cəmiyyətinin seçimini qəbul edir və onunla tamam hesablaşıram. Amma bir türk demokratı kimi, əsl demokratiyanı sevən və dəyərləndirən, həm burada və həm də orada əsl demokratiyanın bərqərar olmasını arzulayan insan kimi hiss edirəm ki, AK partiya ilə bizim yollarımız fərqlidir. Bir daha deyirəm, seçim Türkiyə cəmiyyətinindir və onların seçiminə sayğı və hörmətlə yanaşıram. Gəl ki, hesab etmirəm ki, türk hökumətinin və siyasi dairələrinin Azərbaycandakı vəziyyətdən, azadlıqların və demokratiyanın hansı səviyyədə olmasından xəbərləri yoxdur. Bəli, onlar bizim hakimiyyətə on şirin söz deyəndə birini də bizə, Azərbaycan cəmiyyətinə ünvanlaya bilərdilər. Təbii ki, mən də başa düşürəm, bu, böyük siyasətdir, dövlətlər arasındakı münasibətlərdir. Amma bizdə həmişə Türkiyəyə digər dövlətlərdən daha fərqli münasibət olub. Artıq böyük siyasətin dumanı çəkilib və daha heç kimdən ummuruq, amma Türkiyədən yenə də umuruq və belə hesab edirik ki, Türkiyə heç olmasa, bizim hökumətə bir dəfə işarə edə bilərdi ki, azacıq cəmiyyətinizi də düşünün, "Azərbaycan zəncilər"ni çox da incitməyin, onlar da insandırlar...

Amma demirlər. Əgər desəydilər, hansısa bir formada dışarı sızardı. Ona görə də Türkiyə-Azərbaycan münasibətləri haqqında deyilən bəlağətli sözlər bizdə ən yaxşı halda bir ironiya yaradır, çünki vəziyyətimiz az qala sovetlər dövrünün məşhur bir poemasında yazılan kimidir...

Üstəlik, onu da anlayıram ki, elə mənim də yazdıqlarım "zəncinin arzuları" kimidi. Ən azı onu görə ki, hakim AK partiyanın bizdən də "vacib" problemləri var. İmkan və şərait olsaydı onlar da öz ölkələrində heç bizim hökumətdən, bizim məmurlardan geri qalmazdılar. Sadəcə, orada bir qədər fərqli vəziyyətdir. Amma həqiqətən də fərqlidirmi?

Bax, bununla bağlı çox böyük şübhələrim var. Mənə elə gəlir ki, fərqlər getdikcə azalır: Azərbaycan Türkiyə ola bilmədi, gəl, Türkiyə Azərbaycan olmağa başladı...

YENİ MÜSAVAT
N 226 (6547) 13 oktyabr 2016

# "Cəmiyyət olaraq nəticə çıxarmalı olduğumuz bir bəyanatdır"

## Müxalifət prezident İlham Əliyevin Qarabağ bəyanatına şərh verdi

**Dövlət başçısı İlham Əliyevin Nazirlər Kabinetinin son toplantısındakı sensasiyalı Qarabağ bəyanatını ölkə müxalifəti birmənalı qarşılamır. Dövlət başçısının Qarabağa müstəqillik verilməsi üçün təzyiqlərin olduğunu deməsi fərqli prizmalardan yozulur. Əksər ekspertlər isə bu bəyanatın 26 sentyabr referendumundan sonra verilməsinə də diqqət çəkərək, burada da xüsusi bir məqamın olduğunu vurğulayırlar.**

**KXCP sədri Mirmahmud Mirəlioğlu** dövlət başçısının beynəlxalq təzyiqlərlə bağlı etdiyi çıxışa münasibət bildirərkən qeyd edib ki, Azərbaycan hakimiyyəti növbəti referenduma hazırlaşır: "Bu, qorxulu bir gözləntidir". Teleqraf.az-ın xəbərinə görə, KXCP sədri növbəti referendumun ilin sonunadək keçirilə biləcəyini açıqlayıb. "İlham Əliyevin təzyiqlə bağlı açıqlaması məhz 26 sentyabr referendumundan dərhal sonra verildi. Məhz referendumdan dərhal sonra bu açıqlama verildi. Bu deyilən təzyiqlər əvvəl də var idi, hər zaman var idi. Deyirdilər ki, qarşılıqlı güzəşt olmalıdır. İşğalçı ilə işğal olunana bu, şərt kimi qoyulurdu. Bu mesaj indi cəmiyyətə verildi. Yəni o deməkdir ki, biz növbəti referenduma hazırlaşmalıyıq. Azərbaycan hakimiyyəti artıq buna razılıq verib və növbəti referenduma getməyə hazırlaşır. Bu referendum yəqin ki, yaxın 5-6 ayda olacaq. Bu, Qarabağın statusu ilə bağlı referendumdur. Bu, çox yolverilməz bir məsələdir. İnsanlarımız, vətəndaşlarımız, köçkün düşən vətəndaşlarımız öz torpaqlarında yerləşəndən sonra referendum keçirilə bilər. Ancaq İlham Əliyev indi bu mesajı verir. Bizim yanaşmamız belədir".

**VİP sədri Əli Əliyev isə musavat.com-a açıqlamasında bildirib ki, bəyanat cox ciddi durumdan irəli gələn bir bəyanatdır:** "Bu, Qarabağ məsələsinə münasibətin ağır beynəxalq durumunu özündə ehtiva edir. Adətən dövlət başçısı belə məsələləri cəmiyyətlə bölüşmək istəmir, belə kuluar məsələləri özündə saxlamağa üstünlük verir. Ancaq düşünürəm ki, vəziyyətin gərginliyi onu bu dəfə danışmağa vadar edib. Mənə elə gəlir ki, bu, ciddi mətləblərdən xəbər verir. Daha çox mürəkkəb şəraitlə bağlıdır. Bu, Rusiya- ABŞ qarşıdurması, onun fonunda Qərblə Türkiyə münasibətlərinin gərginləşməsi, Suriya məsələsində vəziyyətin mürəkkəb olmasından xəbər verir. Cəmiyyət olaraq nəticə çıxarmalı olduğumuz bir bəyanatdır".

**Qeyd edək ki, dövlət başçısı İlham Əliyev Nazirlər Kabinetinin ötən həftə keçirilən toplantısında ciddi bir bəyanatla çıxış edib.** "Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Dağlıq Qarabağda status-kvo qəbuledilməzdir". Bu, ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin",- deyə İ.Əliyev qeyd edib. Dövlət başçısı bağlı qapılar arxasındakı söhbətləri açıqlamaq istəmədiyini də vurğulayıb. Səbəbini isə diplomatiyanın öz qaydalarının olması ilə əsaslandırıb: "Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada "beşinci kolon"a göstəriş verərək bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu, heç vaxt olmayacaq. Nə qədər ki, biz iqtidardayıq,- referendum göstərdi ki, inşallah, biz iqtidarda çox olacağıq,- heç vaxt Azərbaycan buna razılıq verməyəcək. Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik". Ekspertlərin fikrincə, dövlət başçısı ilk dəfədir bu cür açıq şəkildə ifadə edir ki, qapalı görüşlərdə Azərbaycanı Qarabağı tanımağa məcbur etmək istəyirlər.


Mirmahmud Mirəlioğlu


Fəzail Ağamalı

**AVP sədri Fəzail Ağamalı isə musavat.com-a bildirib ki, dövlət başçısının ilk dəfə bu cür fikirlər səsləndirməsi təsadüfi deyil:** "İşğal olunmuş torpaqlarımızla, Dağlıq Qarabağ problemi ilə bağlı fikirlərini dövlət başçısı açıqlayarkən, dəfələrlə belə bir anlayışı önə çəkib ki, heç zaman Azərbaycanın ərazilərində erməni dövlətinin yaranmasına izn verilməyəcək. Bir neçə gün öncə də bu fikir bir daha vurğulandı. Məlum oldu ki, Azərbaycanın tarixi ərazisində ikinci erməni dövləti yaratmaq üçün Azərbaycana ən müxtəlif səviyyələrdə, ayrı-ayrı dövlətlər tərəfindən təzyiqlər var. Ölkə prezidenti tərəfindən ilk dəfə olaraq bu, açıqlandı. Bu cür təzyiqlərin müəllifləri əslində BMT-nin nizamnaməsini kobud şəkildə pozurlar. Çünki onların təmsil olunduğu BMT-yə Azərbaycan müstəqil dövlət kimi üzv qəbul olunanda, onun 87 min kvadrat kilometr ərazisi təsbit olunub. Yəni indiki işğaldakı ərazilər də Azərbaycanın ərazisi kimi haqlı olaraq göstərilib. İndi Azərbaycana təzyiq edənlər təkcə bizim ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirmirlər. Eyni zamanda BMT-nin üzünə tüpürürlər, beynəlxalq hüququ təpik altına alırlar. Çıxarılan nəticə bundan ibarətdir ki, dünyada nizam, ədalət tərəzisi tamamilə pozulub. Bu pozulmaların əzabını həm də Azərbaycan, onun xalqı çəkir. Azərbaycan dövlətinin ən önəmli cəhətlərindən biri budur ki, Azərbaycan prezidenti olmuş Heydər Əliyev, indi İlham Əliyev Azərbaycanın ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyib. Amma diplomatik mübarizədə ən böyük iş də bu imiş. Bu gün torpaqlarımızın azad olunmasına da mane olan bu cür ədalətsiz yanaşmalardır. Azərbaycan öz gücünə söykənməli, öz potensialına arxalanmalıdır".

❑ RÖYA

# "Əli İnsanov azadlığa çıxa bilməyəcək"

## 11 illik cəzasının bitməsinə 1 həftə qalmış sabiq nazirin barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçildi; İnsanov vəkili vasitəsilə açıqlama yaydı: "Bu, çox uğursuz şərləmədir"



**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovla bağlı günlərdir davam edən müəmma başa çatdı. Bu ilin avqustunda 3 yeni cinayət maddəsi ilə ittiham olunan sabiq nazirin azadlığa çıxmasına 9 gün qalmış barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçildi. 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan Ə.İnsanov məhkəmədə iştirak etməkdən imtina edib və məhkəməyə yazılı ərizə göndərib.**

11 ildir cəza çəkən 70 yaşlı İnsanova qarşıda olacaq məhkəmədə 3 yeni cinayət maddəsinin toplanması yolu ilə nəzərdə tutulan 10 ildən artıq cəza təyin edilə bilər.

Sabiq səhiyyə naziri vəkili Toğrul Babayev vasitəsilə barəsində çıxarılan həbs-qətimkan qərarına münasibət bildirib. O, bunları deyib: **"Mənə qarşı irəli sürülmüş ittiham yalandır. Bu, çox uğursuz şərləmədir. Mənim 11 illik həbs müddətimin qurtarmasına 9 gün qalmış azadlığa çıxmağımın qarşısını almaq üçün atılmış addımdır".**

Vəkil deyib ki, Ə.İnsanovla bağlı qərardan bugünlərdə apelyasiya şikayəti veriləcək.

Sabiq nazirlə bağlı verilən sərt qərarların səbəbləri ilə bağlı müxtəlif mövqelər var. 2005-ci ilin məlum proseslərində həbs edilən əsas fiqurların hamısı azadlıqdadır, yalnız sabiq səhiyyə nazirindən başqa. Fərhad Əliyev 2013-cü ildə əfv yazdı və dərhal azadlığa buraxıldı. İnsanovun isə əfv ərizəsi yazmadığına görə həbsdə qaldığını deyənlər çoxluq təşkil edir...

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bildirdi ki, sabiq nazirin azadlığa çıxması asan olmayacaq:** "İnsanovla bağlı çıxarılan qərar gözlənilən idi. Düşünürəm ki, vaxtilə iqtidarın etibarlı adamı sayılan və sonradan ona bir növ "dönük" çıxan keçmiş nazir asanlıqla həbsdən azad olunmayacaq. Qarşıdakı üç ayın sonunda keçmiş nazir əvvəlki sayda olmasa da, yenidən uzunmüddətli həbsdə qala bilər. Və proseslər göstərir ki, o hələ uzun müddət bağışlanmayacaq. Əli İnsanovun öz keçmiş silahdaşlarından əfv diləməməsi də onun işinin qəlizləşməsi səbəblərindən biridir. Proses hüquq müdafiəçiləri tərəfindən izlənilir. Yəqin ki, bütün bu proseslər Əli İnsanovun həqiqətən də siyasi məhbus olması qənaətini gücləndirir".

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev hesab edir ki, Azərbaycandakı ənənəyə uyğun olaraq, azadlığa çıxmaq üçün əfv yazmalısan:** "Əli İnsanov bu ənənədən imtina edir və əfv yazmır. Ona görə də bu formada cəzalandırılır. Onun işi hazırda diqqət mərkəzindədir. Açıq şəkildə görünür ki, onun barəsində atılan addımlar siyasi xarakter daşıyır. Ona görə də düşünürəm ki, bu hal çox davam etməyəcək. O, sadəcə, müraciət etmək istəmir. Mövqeyindən geri çəkilmək fikrində deyil. Onun azadlığa çıxması üçün başqa yol yoxdur. Hakimiyyət mövqeyindən geri çəkilməlidir. O, bundan sonrakı uzunmüddətli həbsə də hazırdır. Bundan əvvəl prokurorluğun əməkdaşları onunla danışıqlar aparmışdılar. Xatırlayırsınızsa, vəkilləri içəri buraxılmamışdı. Prokurorluq əməkdaşlarının kimin adından danışdığını demək çətindir. Amma onu demək mümkündür ki, tərəflər razılığa gələ bilməyiblər. İnsanov geri çəkilmək fikrində deyil, olsaydı, indiyə qədər edərdi. Onu necə həbsxanada hədələdikləri məlumdur. Hətta ona həbsxanada öləcəyini belə deyiblər. Amma o, özünü hər şeyə hazır hiss edir".

Qeyd edək ki, sabiq nazir barədə son iki ayda verilən qərarlardan sonra diqqətçəkən bir məqam var. Ə.İnsanovun doğulduğu Qərbi Azərbaycan kökənli şəxslər onun barəsində danışmaqdan ya qorxurlar, ya da qaçırlar. Bir növ sabiq nazir öz yerliləri tərəfindən müdafiəsiz qalıb.

Qərbi Azərbaycandan olan bəzi tanınmış şəxslərə müraciət edəndə bunun şahidi olduq. Amma bununla belə, onlar arasında danışanlar da tapıldı.

**Qərbi Azərbaycana *(Ermənistana)* Qayıdış Birliyinin sədri, Ə.İnsanovun Hüquqlarını Müdafiə Komitəsinin sabiq rəhbəri bunları dedi:** "2005-2010-cu illərdə İnsanovun hüquqlarını qoruyan təşkilatın sədri olmuşam. 2007-ci ildə bu işə görə həbs olunmuşam. 4 il siyasi məhbus olaraq həbs yatmışam. Həbsimə qədər geniş şəkildə onun həbsi ilə bağlı mövqeyimi bildirmişəm. "Yeni Müsavat"da gedən müsahibələrimin birində bildirmişdim ki, insanı həbs etmək asandır, lakin onu azadlığa buraxmaq çətindir. Söhbət Əli İnsanov kimi insan barədə gedirdi. Bu gün də hakimiyyət həmin çətinliyi yaşayır. Təkrar olunan məsələlər də bununla bağlıdır. Başqa bir səbəb görmürəm. Sadəcə, ortada onu azadlığa buraxmaq çətinliyi var. O, azadlığa çıxmaq istəsəydi, indiyə qədər addımlar atardı. O da əfvdən keçir. Amma hər halda, azadlığa çıxmaq alnına yazılıbsa, çıxacaq, əks halda, Allahın işinə biz qarışa bilmərik. Bəzi dairələr İnsanovun buraxılmamasını hakimiyyətin ondan qorxması ilə izah edirlər. Bu fikirləri tamamilə absurd hesab edirəm. Çünki İnsanov ən nüfuzlu olan vaxtlarında həbs olunub. 11 ildir həbsdə saxlanılır. İndi də əlavə maddələr irəli sürülüb. Bəzi dairələr İnsanovdan hakimiyyət üçün "xoxan" düzəldirlər. Burada başqa bir şey yoxdur".

**"Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı sabiq nazirə qarşı haqsızlıq dramının yaşandığını bildirdi:** "Mən qərbi azərbaycanlı kimi İnsanov barədə danışmıram. Hüquqları pozulmuş, haqsızlığa məruz qalmış bir yaşlı şəxs barədə danışıram. Təəssüf edirəm ki, Azərbaycan xalqı bu haqsızlığı sakitliklə seyr edir. Ona qarşı baş verənlər böyük şərdir. İnsanovu bir daha cəzalandırmaq onu ölümə məhkum etməkdir. Onunla bağlı istənilən əlavə qərar ölümə bərabərdir. Hakimiyyətin onu azad etmək fikri yoxdur. Beynəlxalq təşkilatlarla görüşdə bu məsələni daim qabardıram. Amma bir şeyi başa düşmürəm ki, İnsanov cəmiyyətlə işləmir, cəmiyyətə xitab eləmir. O, kifayət qədər təcrübəli adamdır. Onun mübarizəsini başa düşürəm, amma ictimaiyyət tərəfindən bunun niyə dəstəklənməsini istəməməsini başa düşmürəm. Bilməlidir ki, onun həbsxanadan çıxmasına icazə verilməyəcək".

**Ə.Zeynallı onunla bağlı danışmağa cəsarət etməyənlərə də səsləndi:** "Onun barədə danışmayanlar vaxtilə qabından qırıntılar yeyən şəxslərdir. Vaxtilə həmin şəxslər başımızı yarırdılar ki, elin ağsaqqalından nə istəyirsiniz. İndi elin ağsaqqalı dardadır. Onun boşqabının dibini yalayanlar, hardasız? Gedin ağsaqqalınızı müdafiə edin!"

❑ Cavanşir ABBASLI

# MTN generallarının "Vosmoy" bazarı əməliyyatı"nın yeni şok detalları - qarşı tərəfdən ilginc açıqlamalar

## Sahibkar Salman Səfərov: "Qardaşlarıma dəhşətli işgəncələr verdilər, onları 500 min dollar verib, azad etdirdik; "Akif Çovdarov dedi ki, Eldar Mahmudov bazarın hamısını istəyir"

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin generalları, Akif Çovdarovla Hilal Əsədovun yağmaladığı "8-ci kilometr" ("Vosmoy") bazarı haqda çox yazılıb. Ötən saylarımızdan birində "Vosmoy bazarı" uğrunda gedən 15 illik savaşın ilginc detalları..." sərlövhəli yazıda http://musavat.com/news/vosmoy-bazari-ugrunda-geden-15-illik-savashin-ilginc-detallari_383845.html bu mövzuya yenidən müraciət olunub. Yazıda bazarın ilk sahiblərindən olmuş Çingiz Əsədovdan Səfərov qardaşlarının əli ilə vaxtilə iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyev, onun qardaşı Rafiq Əliyev tərəfindən alınması iddiaları yer alıb. Yazı dərc olunandan sonra redaksiyamıza gələn Salman Səfərov bildirib ki, yazılanlarla razı deyil.**



### "Fərhad Əliyevlə, onun qardaşları ilə bircə telefon zəngimiz çıxsa, bazarı götürün"

**Müsahibimizin fikirinə görə, mətbuata bu səpkili xəbərləri ötürməklə Akif Çovdarov, Hilal Əsədov vaxtilə onlara qarşı törətdikləri cinayətlərə görə məsuliyyətdən yayınmaq niyyəti güdürlər:** "Bizim Cəlilabaddan olmağımızı əsas götürüb adımızı Fərhad Əliyevlə bağlamaqla bazarın əlimizdən alınmasına haqq qazandırmağa çalışırlar. Halbuki biz 8 qardaşıq, birimizin də nə Fərhad Əliyevlə, nə onun qardaşları ilə heç vaxt heç bir ilişkimiz, münasibətimiz olmayıb. Akif Çovdarov Çingiz Əsədovu qabağa verib Fərhad Əliyevin adını hallandırmaqla öz cinayətini ört-basdır etməyə çalışır. Akif Çovdarov 2005-ci ilin dekabrında bazarı bizdən zor gücünə alanda da Fərhad Əliyevin adını hallandırırdı. Həmin vaxt 2 ay idi ki, Fərhad Əliyev həbs edilmişdi. Biz o vaxt da Akif Çovdarova demişdik ki, araşdırın, əgər birimizin Fərhad Əliyevlə, onun qardaşları ilə bircə telefon zəngimiz çıxsa, bazarı götürün. Bunun əvəzində Akif Çovdarov qardaşlarım Cəfərə, Qəhrəmana olmazın işgəncələr verdirmişdi. Başlarına torba keçirib dəhşətli əzablar vermişdilər qardaşlarıma. Akif Çovdarov indi başa düşür ki, bazara görə cavab verməlidir, ona görə də bazarın ilk sahiblərindən biri Çingiz Əsədovu qabağa veriblər. Bu adam ayda Akif Çovdarovun adamlarından 3 min manat pul alır. Bizim əleyhimizə danışmaq üçün də Akif Çovdarovun adamları ona təzə "Mercedes" bağışlayıblar. İnanmayanlar gedib araşdırsınlar, Çingiz Əsədovun sürdüyü "Mercedes"in nə vaxt alındığına diqqət etsinlər".

### Çingiz Əsədov qardaşını döydürdü, qardaşı da mühafizəçini öldürdü

**S.Səfərov deyir ki, bazar 2001-ci ilə qədər Çingiz Əsədov, Səftər və Abdulla adlı şəxslərin olub:** "1995-ci ildən 1999-cu ilə qədər mən həmin bazarda meyvə-tərəvəzin topdansatışı ilə məşğul olmuşam. Həmin dövrdə qardaşlarım bazar işi ilə məşğul olmurdular. 1999-cu ilin sonlarında Çingiz Əsədov Əlisa Məhərrəmova və mənə təklif etdi ki, bazarı sizə icarəyə verim, işlədin. Razılaşdıq ki, bazarın 50 faizini bizə icarəyə verirlər. Çingiz bazarda otursa da, digər iki şəxs demək olar ki, bazara gəlmirdilər. Həmin gecə digər şəriklər - Səftər və Abdulla da bazara gəldilər, razılaşmada iştirak etdilər. Bundan 2-3 ay sonra Çingiz Əsədov bazarı tam olaraq bizə icarəyə verdi. 2001-ci ilin əvvəllərinə qədər Çingiz Əsədovun qardaşları Elşən, Əsrəddin, Fəxrəddin, Həbib, Vahid Əsədovlar da bazarda ayrı-ayrı işlərlə məşğul idilər. 2001-ci ilin əvvəlində Elşən Əsədov işlətdiyi dükanın icarə haqqını vermədiyinə görə Çingiz Əsədov onu özünün mühafizəçilərinə döydürdü. Bundan sonra Elşən Əsədov gedib Əsrədinin dükanından yağ bıçağını götürüb Çingizi öldürməyə gəldi. Elşən onu sakitləşdirməyə çalışan mühafizəçi Azəri öldürdü. Mühafizəçi öləndən sonra Elşəni də, Çingizi də tutdular. Sonradan Ələddin adlı qardaşları Çingizi həbsdən azad etdirmək üçün hamımızdan pul yığdı. Çingiz Əsədov azad olunandan sonra borcları qaytarmaq məqsədilə, şəriklərinin adına xələl gəlməsin deyə bazardan uzaqlaşmaq istədiyini dedi. Hələ o dövrdə Çingiz Əsədova dedim ki, narahat olmasın, borc-xərci işləyib verəcəyik. Ç.Əsədov dedi ki, burada qala bilməz, şərikləri ilə də razılaşıb ki, bazarı satıb Moskvaya qayınlarının yanına gedir".

### Çingiz Əsədov dedi ki, qalan 50 faizi də satıram

**S.Səfərov deyir ki, bu söhbətdən 10-15 gün keçəndən sonra Ç.Əsədov bazara müştəri gətirib:** "Məhərrəm Əliyevin bacısı oğlu Nadir gəldi və bazarı siyahıya aldı. Onda bildik ki, o, bazarı almaq istəyir. Çingiz bazarı 2001-ci ilin əvvəllərində 220 min dollara satırdı, Nadir isə 180 min pul verirdi. Qiymət razılaşması olmadı, alqı-satqı alınmadı. Həmin vaxt biz təklif etdik ki, bazarın 50 faizini bizə sat, alaq. Çingiz Əsədov bizdən 120 min dollar aldı. Bundan sonra notariusa gedib tam ortaqlıqla bağlı razılığını bildirdi, qardaşım Cəfər Səfərov bazarın tam yarısına sahib oldu. 2002-ci ilin ortalarında Çingiz Əsədov dedi ki, qalan 50 faizi də satıram. İmkanımız yox idi, borc alıb, bazarı tam olaraq ondan aldıq. Çingiz Əsədovun ailə üzvləri də notariusa gəlib alqı-satqıya etiraz etmədiklərini bildirdilər".

### "MTN-çilər bazardakı ofisimizə basqın etdilər"

S.Səfərov deyir ki, 2005-ci il dekabrın 16-na qədər bazarda işləyiblər: "Həmin gün bazardakı ofisimizə MTN-çilər basqın etdi. Həmin vaxt ofisdə qardaşım Qəhrəman, bazarın direktoru Əyyub Novruzov, mühasib Akif Əzimov, mən və başqa işçilər də vardı. Onlar Qəhrəmanı tutdular, məni soruşdular, dedim ki, burada idi, getdi. Oradan bazarın sıravi işçisi kimi çıxdım və qardaşım Cəfərə baş verənlər haqda xəbər verdim. Sonradan bildim ki, MTN-çilər Akif Əzimovu, Qəhrəmanı, Əyyub Novruzovu özləri

## Hilal Əsədovun həyat yoldaşının yalanını ifşa edən dəlil ortaya necə çıxdı?

ilə aparıblar".

### "Əgər biz 8 qardaşdan birinin Fərhad Əliyevlə əlaqəmiz olsaydı..."

**S.Cəfərov deyir ki, bundan sonra Akif Çovdarov dövrəyə girib və bazarı əllərindən alıb. Bu zaman Çingiz Əsədovun yalanlarından gen-bol istifadə edilib:** "Onları MTN-ə aparandan sonra Akif Çovdarov qardaşım Cəfərə zəng etmişdi. Demişdi ki, haradasansa, dur gəl MTN-ə. Cəfər də MTN-ə getməmək üçün ona cavab vermişdi ki, şəhərdən kənardayam, gələ bilmərəm. Akif Çovdarov Cəfərə bildirmişdi ki, sən "Elit" ticarət mərkəzinin yanındasan, bura gəl. Yəni artıq qardaşımın telefonunu izləməyə başlayıbmışlar. Planı da əvvəldən qurublar. Həmin vaxt biz haqq səsimizi ölkə rəhbərliyinə çatdırmaq üçün yollar axtarırdıq. Cəfər də ona görə MTN-ə getmək istəmirdi. Amma Akif Çovdarov onun yerini dəqiq dediyindən başa düşmüşdü ki, hara getsə, gəlib onu tapacaqlar, özü Akif Çovdarovun kabinetinə getmişdi. Orada Akif Çovdarov kabinetində qardaşıma deyib ki, bazar iqtisadi inkişaf naziri Fərhad Əliyevindir, bazarı təhvil ver. Qardaşım da deyib ki, bizim Fərhad Əliyevlə heç bir əlaqəmiz yoxdur. Bizə Akif Çovdarov dedi ki, Çingiz Əsədov deyir ki, bazarı Səfərovlara satdım, pulunu gecə Fərhad Əliyev bazara qara maşında gəlib, 300 min verib və çıxıb gedib. Cəfər də Akif Çovdarova demişdi ki, siz bazarın bizə qədər olan sahibləri - Səftər və Abdullanı da çağırıb dinləyin, biz bazarı öz şəxsi vəsaitimizə almışıq. Çingiz bizə şər atır. Əgər biz 8 qardaşdan birinin Fərhad Əliyevlə əlaqəmiz olsaydı, azı onunla, qardaşları ilə telefon danışıqlarımız, olardı, xeyir-şərdə qarşılaşardıq. O, qardaşlarım Cəfəri və Qəhrəmanı yanındakılara işarə verib demişdi ki, aparın, bunları başa salın. Qardaşım Cəfəri və Qəhrəmanı başlarına qara torba keçirib aparıb dəhşətli işgəncə veriblər. Olmazın əzablardan sonra həmin gecə Cəfəri və Qəhrəmanı 500 min dollar vermək şərti ilə MTN-dən azad etdilər. Qardaşlarım evə pis gündə gəlmişdilər".

**S.Səfərov deyir ki, Akif Çovdarov növbəti gün Cəfər Səfərova zəng vurub və MTN-ə getməsini tapşırıb:** "Akif Çovdarov Cəfərə demişdi ki, Eldar Mahmudov 500 min dollarla razı deyil, bazarı tam verin. Bazar o dövrdə "Bank of Baku"da girovluqda idi. Akif Çovdarov Cəfərlə birgə banka getdi, banka olan 78 min dollar borcu Akif Çovdarov verdi. Bundan sonra Akif Çovdarov Əmlak Nazirliyindən kiməsə zəng etdi, həmin adam sənədi tezliklə aparıb girovdan çıxarılması haqda başqa bir sənədi qaytarıb verdi. Növbəti gün Akif Çovdarov Cəfəri "Olimp" mağazasının yanında olan notariusa apardı, orada bazarı Qulu Cəfərovun adına keçirdi. 2005-ci ilin dekabrın 20-də bazarı rəsmən bizdən aldılar. Çingiz Əsədov da bizə deyirdi ki, bazarın pulunu guya Fərhad Əliyevin verdiyini söyləməyi ona Akif Çovdarov tapşırıb. Deyirdi ki, mən Akif Çovdarovdan qorxuram, belə deməsəm, pis olar".

**Müsahibimiz deyir ki, 2005-ci ilin dekabr ayının 30-na qədər bazarda qalıblar:** "O dövrdə bazara Elşən Hüseynov və Ənvər Məmmədov gəldilər. Elşən Hüseynov Akif Çovdarovun yaxın adamı, qonşusu idi, Ənvər Məmmədov isə Hilal Əsədovun qayınatası idi. Bizə deyirdi ki, istəsəm, sizi itirərəm. Bazardan bizi uzaqlaşdırandan sonra mən dəfələrlə Akif Çovdarovun yanında olmuşam. Ondan bizi bazardan çıxarmamasını istəmişəm. Amma razılaşmayıb. Mən bazarın əlimizdən alınması ilə bağlı dəfələrlə şikayətlər edirdim. Şikayət məktublarımı Akif Çovdarovun özünə göndərirdilər. O da mənə deyirdi ki, cavan oğlansan, maşınından tank çıxa bilər, qızla şərləyə bilərəm, iynə vuraram iflic olarsan, get sakit otur.

Deyirdi ki, məni başa düş, bazarı mən almasaydım, yerimdə oturan bir başqası əlinizdən alacaqdı. Deyirdi ki, gəl sənə bir iş verim, işlə, bazar söhbətindən əl çək. Razılaşmadım. Mən şikayətlərimdə onu Hacı Məmmədovun davamçısı kimi göstərirdim. Bu da Akif Çovdarovu əsəbiləşdirirdi. Deyirdi ki, şikayət yazma, hakimiyyət dəyişən kimi bazarı özünüzə qaytaracağıq".

### "Maaşını 3 min manata qaldırıblar, təzə "Mercedes" alıb bağışlayıblar"

**S.Cəfərov deyir ki, Eldar Mahmudov işdən qovulandan dərhal sonra Prezident Administrasiyasına, Baş Prokurorluğa teleqramlar vurub:** "Çağırıb ifadəmi aldılar və araşdırma başladı. İşdə əsas şəxs Çingiz Əsədov olduğundan onun dindirilməsini xahiş etdim. Çünki başımıza gətirilən müsibətlərə o, xoş-zor şahidlik etmişdi. Prokurorluqdan isə dedilər ki, imkan varsa, özünüz onunla əlaqə saxlayın, gəlib ifadə versin. Biz də onun evinə getdik, dedik ki, prokurorluğa gedib həqiqəti demək lazımdır. O da razılaşdı, dedi ki, xəstədir, 3-4 günə gedə bilər. Növbəti dəfə evinə gedəndə isə Fərhad Əliyevin adını hallandırmağa başladı, dedi ki, prokurorluqdan rəsmi çağırış olmasa, gedən deyil. Sonradan bazardan eşitdik ki, Akif Çovdarovgil ona ayda 1000 min manat pul veriblər. Bu söhbətlərdən sonra isə maaşını 3 min manata qaldırıblar, təzə "Mercedes" alıb bağışlayıblar. Üstəlik, o, bizim evinə getdiyimiz vaxt səsimizi də yazıb və prokurorluğa təqdim edib. Öz aləmində guya bizi ifşa edib. Biz isə ona həqiqəti söyləməkdən başqa bir söz deməmişik".

**S.Səfərov deyir ki, Ç.Əsədov sonradan rəsmi çağırışla prokurorluğa dəvət edilib, dindirilib:** "O, bu gün də Akif Çovdarovgilin ona hədiyyə etdikləri həmin "Mercedes"də gəzir. Onlarla əlaqəsi bu gün də qalır".

### Akif Çovdarov zərərçəkənə: "Mən ölüb getsəm də, mənim xofum sənin canından çıxmayacaq"

**S.Səfərov qardaşı Cəfər Səfərovun Akif Çovdarovla Bakı İstintaq Təcridxanasında üzləşdirilməsi haqda bunları deyib:** "Bizim şikayətlərdən sonra Akif Çovdarov Bakı İstintaq Təcridxanasında Cəfərlə üzləşdirildi. Cəfər orada Akif Çovdarovun üzünə nə baş veribsə deyib. Akif Çovdarov da deyib ki, mən ölüb getsəm də, xofum sənin canından çıxmayacaq. Akif Çovdarov da Fərhad Əliyevin adını hallandırıb".

**S.Səfərov prokurorluqda şikayətləri araşdırılan zaman çox maraqlı bir detalın da üzə çıxarıldığını söylədi:** "Hilal Əsədovun həyat yoldaşı Nüşabə Əsədova mətbuata açıqlamasında belə bir fikir işlətmişdi ki, heç bir obyektləri yoxdur. Mən Salman Cəfərov da buradan deyirəm, əlbəttə var, həm də Nüşabə Əsədovanın özünün adınadır. Bazar bizim əlimizdən alınıb və Akif Çovdarovla Hilal Əsədov bazarı dədə malı kimi aralarında bölüblər. Akif bazarı qızı Aydan Əmircanovanın, Hilal Əsədov isə həyat yoldaşı Nüşabə Əsədovanın adına keçirib. Nüşabə Əsədova Hilal Əsədovdan soruşsun, obyektləri sırasında bizim əlimizdən alınan bazar kimin adına rəsmiləşdirilib? Öz atasından da soruşa bilər.

### "Çingiz Əsədovu danışdıran Akif Çovdarov və Hilal Əsədovdur"

Biz prokurorluqda olana qədər elə bilirdik ki, təkcə bizim əmlakımız - bazar zorla əlimizdən alınıb. Orada isə bizim kimi onlarla adamı gördük. Bu gün Çingiz Əsədovu danışdıran Akif Çovdarov və Hilal Əsədovdur. Bunu hər kəs bilsin. Bizi Fərhad Əliyevin adı ilə şərləyib 11 il halal əmlakımızdan kənar qoyublar. Bizim qazancımıza sahiblənibləр, oğul-uşaqlarına ev-eşik alıblar. Haqqımızı yeyiblər. Bu gün isə cavab vermək, törətdikləri cinayətlərə görə məhkəmə qarşısında dayanmaq zamanıdır. Onun-bunun adını hallandırmaqla vəziyyətdən çıxmaq mümkün olmayacaq, bizə qarşı etdiklərinizə görə qanun qarşısında cavab verəcəksiz".

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin generalları, Akif Çovdarovla Hilal Əsədovun yağmaladığı “8-ci kilometr” (“Vosmoy”) bazarı haqda çox yazılıb. Ötən saylarımızdan birində “Vosmoy bazarı” uğrunda gedən 15 illik savaşın ilginc detalları..." sərlövhəli yazıda http://musavat.com/news/vosmoy-bazari-ugrunda-geden-15-illik-savashin-ilginc-detallari_383845.html bu mövzuya yenidən müraciət olunub. Yazıda bazarın ilk sahiblərindən olmuş Çingiz Əsədovdan Səfərov qardaşlarının əli ilə vaxtilə iqtisadi inkişaf naziri olmuş Fərhad Əliyev, onun qardaşı Rafiq Əliyev tərəfindən alınması iddiaları yer alıb. Yazı dərc olunandan sonra redaksiyamıza gələn Salman Səfərov bildirib ki, yazılanlarla razı deyil.**



# MTN generallarının ““Vosmoy bazarı” əməliyyatı“nın yeni şok detalları - qarşı tərəfdən ilginc açıqlamalar

**Sahibkar Salman Səfərov:** “Qardaşlarıma dəhşətli işgəncələr verdilər, onları 500 min dollar verib, azad etdirdik; ”Akif Çovdarov dedi ki, Eldar Mahmudov bazarın hamısını istəyir"

## “Fərhad Əliyevlə, onun qardaşları ilə bircə telefon zəngimiz çıxsa, bazarı götürün”

**Müsahibimizin fikirinə görə, mətbuata bu səpkili xəbərləri ötürməklə Akif Çovdarov, Hilal Əsədov vaxtilə onlara qarşı törətdikləri cinayətlərə görə məsuliyyətdən yayınmaq niyyəti güdürlər:** “Bizim Cəlilabaddan olmağımızı əsas götürüb adımızı Fərhad Əliyevlə bağlamaqla bazarın əlimizdən alınmasına haqq qazandırmağa çalışırlar. Halbuki biz 8 qardaşıq, birimizin də nə Fərhad Əliyevlə, nə onun qardaşları ilə heç vaxt heç bir ilişkimiz, münasibətimiz olmayıb. Akif Çovdarov Çingiz Əsədovu qabağa verib Fərhad Əliyevin adını hallandırmaqla öz cinayətini ört-basdır etməyə çalışır. Akif Çovdarov 2005-ci ilin dekabrında bazarı bizdən zor gücünə alanda da Fərhad Əliyevin adını hallandırırdı. Həmin vaxt 2 ay idi ki, Fərhad Əliyev həbs edilmişdi. Biz o vaxt da Akif Çovdarova demişdik ki, araşdırın, əgər birimizin Fərhad Əliyevlə, onun qardaşları ilə bircə telefon zəngimiz çıxsa, bazarı götürün. Bunun əvəzində Akif Çovdarov qardaşlarım Cəfərə, Qəhrəmana olmazın işgəncələr verdirmişdi. Başlarına torba keçirib dəhşətli əzablar vermişdilər qardaşlarıma. Akif Çovdarov indi başa düşür ki, bazara görə cavab verməlidir, ona görə də bazarın ilk sahiblərindən biri Çingiz Əsədovu qabağa veriblər. Bu adam ayda Akif Çovdarovun adamlarından 3 min manat pul alır. Bizim əleyhimizə danışmaq üçün də Akif Çovdarovun adamları ona təzə ”Mercedes" bağışlayıblar. İnanmayanlar gedib araşdırsınlar, Çingiz Əsədovun sürdüyü “Mercedes”in nə vaxt alındığına diqqət etsinlər".

## Çingiz Əsədov qardaşını döydürdü, qardaşı da mühafizəçini öldürdü

**S.Səfərov deyir ki, bazar 2001-ci ilə qədər Çingiz Əsədov, Səftər və Abdulla adlı şəxslərin olub:** “1995-ci ildən 1999-cu ilə qədər mən həmin bazarda meyvə-tərəvəzin topdansatışı ilə məşğul olmuşam. Həmin dövrdə qardaşlarım bazar işi ilə məşğul olmurdular. 1999-cu ilin sonlarında Çingiz Əsədov Əlisa Məhərrəmova və mənə təklif etdi ki, bazarı sizə icarəyə verim, işlədin. Razılaşdıq ki, bazarın 50 faizini bizə icarəyə verirlər. Çingiz bazarda otursa da, digər iki şəxs demək olar ki, bazara gəlmirdilər. Həmin gecə digər şəriklər - Səftər və Abdulla da bazara gəldilər, razılaşmada iştirak etdilər. Bundan 2-3 ay sonra Çingiz Əsədov bazarı tam olaraq bizə icarəyə verdi. 2001-ci ilin əvvəllərinə qədər Çingiz Əsədovun qardaşları Elşən, Əsrəddin, Fəxrəddin, Həbib, Vahid Əsədovlar da bazarda ayrı-ayrı işlərlə məşğul idilər. 2001-ci ilin əvvəlində Elşən Əsədov işlətdiyi dükanın icarə haqqını vermədiyinə görə Çingiz Əsədov onu özünün mühafizəçilərinə döydürdü. Bundan sonra Elşən Əsədov gedib Əsrədinin dükanından yağ bıçağını götürüb Çingizi öldürməyə gəldi. Elşən onu sakitləşdirməyə çalışan mühafizəçi Azəri öldürdü. Mühafizəçi öləndən sonra Elşəni də, Çingizi də tutdular. Sonradan Ələddin adlı qardaşları Çingizi həbsdən azad etdirmək üçün hamımızdan pul yığdı. Çingiz Əsədov azad olunandan sonra borcları qaytarmaq məqsədilə, şəriklərinin adına xələl gəlməsin deyə bazardan uzaqlaşmaq istədiyini dedi. Hələ o dövrdə Çingiz Əsədova dedim ki, narahat olmasın, borc-xərci işləyib verəcəyik. Ç.Əsədov dedi ki, burada qala bilməz, şərikləri ilə də razılaşıb ki, bazarı satıb Moskvaya qayınlarının yanına gedir”.

## Çingiz Əsədov dedi ki, qalan 50 faizi də satıram

**S.Səfərov deyir ki, bu söhbətdən 10-15 gün keçəndən sonra Ç.Əsədov bazara müştəri gətirib:** “Məhərrəm Əliyevin bacısı oğlu Nadir gəldi və bazarı siyahıya aldı. Onda bildik ki, o, bazarı almaq istəyir. Çingiz bazarı 2001-ci ilin əvvəllərində 220 min dollara satırdı, Nadir isə 180 min pul verirdi. Qiymət razılaşması olmadı, alqı-satqı alınmadı. Həmin vaxt biz təklif etdik ki, bazarın 50 faizini bizə sat, alaq. Çingiz Əsədov bizdən 120 min dollar aldı. Bundan sonra notariusa gedib tam ortaqlıqla bağlı razılığını bildirdi, qardaşım Cəfər Səfərov bazarın tam yarısına sahib oldu. 2002-ci ilin ortalarında Çingiz Əsədov dedi ki, qalan 50 faizi də satıram. İmkanımız yox idi, borc alıb, bazarı tam olaraq ondan aldıq. Çingiz Əsədovun ailə üzvləri də notariusa gəlib alqı-satqıya etiraz etmədiklərini bildirdilər”.

## “MTN-çilər bazardakı ofisimizə basqın etdilər”

S.Səfərov deyir ki, 2005-ci il dekabrın 16-na qədər bazarda işləyiblər: “Həmin gün bazardakı ofisimizə MTN-çilər basqın etdi. Həmin vaxt ofisdə qardaşım Qəhrəman, bazarın direktoru Əyyub Novruzov, mühasib Akif Əzimov, mən və başqa işçilər də vardı. Onlar Qəhrəmanı tutdular, məni soruşdular, dedim ki, burada idi, getdi. Oradan bazarın sıravi işçisi kimi çıxdım və qardaşım Cəfərə baş verənlər haqda xəbər verdim. Sonradan bildim ki, MTN-çilər Akif Əzimovu, Qəhrəmanı, Əyyub Novruzovu özləri ilə aparıblar”.

## “Əgər biz 8 qardaşdan birinin Fərhad Əliyevlə əlaqəmiz olsaydı...”

**S.Cəfərov deyir ki, bundan sonra Akif Çovdarov dövrəyə girib və bazarı əllərindən alıb. Bu zaman Çingiz Əsədovun yalanlarından gen-bol istifadə edilib:** “Onları MTN-ə aparandan sonra Akif Çovdarov qardaşım Cəfərə zəng etmişdi. Demişdi ki, haradasansa, dur gəl MTN-ə. Cəfər də MTN-ə getməmək üçün ona cavab vermişdi ki, şəhərdən kənardayam, gələ bilmərəm. Akif Çovdarov Cəfərə bildirmişdi ki, sən ”Elit" ticarət mərkəzinin yanındasan, bura gəl. Yəni artıq qardaşımın telefonunu izləməyə başlayıbmışlar. Planı da əvvəldən qurublar. Həmin vaxt biz haqq səsimizi ölkə rəhbərliyinə çatdırmaq üçün yollar axtarırdıq. Cəfər də ona görə MTN-ə getmək istəmirdi. Amma Akif Çovdarov onun yerini dəqiq dediyindən başa düşmüşdü ki, hara getsə, gəlib onu tapacaqlar, özü Akif Çovdarovun kabinetinə getmişdi. Orada Akif Çovdarov kabinetində qardaşıma deyib ki, bazar iqtisadi inkişaf naziri Fərhad Əliyevindir, bazarı təhvil ver. Qardaşım da deyib ki, bizim Fərhad Əliyevlə heç bir əlaqəmiz yoxdur. Bizə Akif Çovdarov dedi ki, Çingiz Əsədov deyir ki, bazarı Səfərovlara satdım, pulunu gecə Fərhad Əliyev bazara qara maşında gəlib, 300 min verib və çıxıb gedib. Cəfər də Akif Çovdarova demişdi ki, siz bazarın bizə qədər olan sahibləri - Səftər və Abdullanı da çağırıb dinləyin, biz bazarı öz şəxsi vəsaitimizə almışıq. Çingiz bizə şər atır. Əgər biz 8 qardaşdan birinin Fərhad Əliyevlə əlaqəmiz olsaydı, azı onunla, qardaşları ilə telefon danışıqlarımız, olardı, xeyir-şərdə qarşılaşardıq. O, qardaşlarım Cəfəri və Qəhrəmanı yanındakılara işarə verib demişdi ki, aparın, bunları başa salın. Qardaşım Cəfəri və Qəhrəmanı başlarına qara torba keçirib aparıb dəhşətli işgəncə veriblər. Olmazın əzablardan sonra həmin gecə Cəfəri və Qəhrəmanı 500 min dollar vermək şərti ilə MTN-dən azad etdilər. Qardaşlarım evə pis gündə gəlmişdilər".

**S.Səfərov deyir ki, Akif Çovdarov növbəti gün Cəfər Səfərova zəng vurub və MTN-ə getməsini tapşırıb:** “Akif Çovdarov Cəfərə demişdi ki, Eldar Mahmudov 500 min dollarla razı deyil, bazarı tam verin. Bazar o dövrdə ”Bank of Baku"da girovluqda idi. Akif Çovdarov Cəfərlə birgə banka getdi, banka olan 78 min dollar borcu Akif Çovdarov verdi. Bundan sonra Akif Çovdarov Əmlak Nazirliyindən kiməsə zəng etdi, həmin adam sənədi tezliklə aparıb girovdan çıxarılması haqda başqa bir sənədi qaytarıb verdi. Növbəti gün Akif Çovdarov Cəfəri “Olimp” mağazasının yanında olan notariusa apardı, orada bazarı Qulu Cəfərovun adına keçirdi. 2005-ci ilin dekabrın 20-də bazarı rəsmən bizdən aldılar. Çingiz Əsədov da bizə deyirdi ki, bazarın pulunu guya Fərhad Əliyevin verdiyini söyləməyi ona Akif Çovdarov tapşırıb. Deyirdi ki, mən Akif Çovdarovdan qorxuram, belə deməsəm, pis olar".

**Müsahibimiz deyir ki, 2005-ci ilin dekabr ayının 30-na qədər bazarda qalıblar:** “O dövrdə bazara Elşən Hüseynov və Ənvər Məmmədov gəldilər. Elşən Hüseynov Akif Çovdarovun yaxın adamı, qonşusu idi, Ənvər Məmmədov isə Hilal Əsədovun qayınatası idi. Bizə deyirdi ki, istəsəm, sizi itirərəm. Bazardan bizi uzaqlaşdırandan sonra mən dəfələrlə Akif Çovdarovun yanında olmuşam. Ondan bizi bazardan çıxarmamasını istəmişəm. Amma razılaşmayıb. Mən bazarın əlimizdən alınması ilə bağlı dəfələrlə şikayətlər edirdim. Şikayət məktublarımı Akif Çovdarovun özünə göndərirdilər. O da mənə deyirdi ki, cavan oğlansan, maşınından tank çıxa bilər, qızla şərləyə bilərəm, iynə vuraram iflic olarsan, get sakit otur.

Deyirdi ki, məni başa düş, bazarı mən almasaydım, yerimdə oturan bir başqası əlinizdən alacaqdı. Deyirdi ki, gəl sənə bir iş verim, işlə, bazar söhbətindən əl çək. Razılaşmadım. Mən şikayətlərimdə onu Hacı Məmmədovun davamçısı kimi göstərirdim. Bu da Akif Çovdarovu əsəbiləşdirirdi. Deyirdi ki, şikayət yazma, hakimiyyət dəyişən kimi bazarı özünüzə qaytaracağıq".

## Hilal Əsədovun həyat yoldaşının yalanını ifşa edən dəlil ortaya necə çıxdı?

## “Maaşını 3 min manata qaldırıblar, təzə ”Mercedes" alıb bağışlayıblar"

**S.Cəfərov deyir ki, Eldar Mahmudov işdən qovulandan dərhal sonra Prezident Administrasiyasına, Baş Prokurorluğa teleqramlar vurub:** “Çağırıb ifadəmi aldılar və araşdırma başladı. İşdə əsas şəxs Çingiz Əsədov olduğundan onun dindirilməsini xahiş etdim. Çünki başımıza gətirilən müsibətlərə o, xoş-zor şahidlik etmişdi. Prokurorluqdan isə dedilər ki, imkan varsa, özünüz onunla əlaqə saxlayın, gəlib ifadə versin. Biz də onun evinə getdik, dedik ki, prokurorluğa gedib həqiqəti demək lazımdır. O da razılaşdı, dedi ki, xəstədir, 3-4 günə gedə bilər. Növbəti dəfə evinə gedəndə isə Fərhad Əliyevin adını hallandırmağa başladı, dedi ki, prokurorluqdan rəsmi çağırış olmasa, gedən deyil. Sonradan bazardan eşitdik ki, Akif Çovdarovgil ona ayda 1000 min manat pul veriblər. Bu söhbətlərdən sonra isə maaşını 3 min manata qaldırıblar, təzə ”Mercedes" alıb bağışlayıblar. Üstəlik, o, bizim evinə getdiyimiz vaxt səsimizi də yazıb və prokurorluğa təqdim edib. Öz aləmində guya bizi ifşa edib. Biz isə ona həqiqəti söyləməkdən başqa bir söz deməmişik".

**S.Səfərov deyir ki, Ç.Əsədov sonradan rəsmi çağırışla prokurorluğa dəvət edilib, dindirilib:** “O, bu gün də Akif Çovdarovgilin ona hədiyyə etdikləri həmin ”Mercedes"də gəzir. Onlarla əlaqəsi bu gün də qalır".

## Akif Çovdarov zərərçəkənə: “Mən ölüb getsəm də, mənim xofum sənin canından çıxmayacaq”

**S.Səfərov qardaşı Cəfər Səfərovun Akif Çovdarovla Bakı İstintaq Təcridxanasında üzləşdirilməsi haqda bunları deyib:** “Bizim şikayətlərdən sonra Akif Çovdarov Bakı İstintaq Təcridxanasında Cəfərlə üzləşdirildi. Cəfər orada Akif Çovdarovun üzünə nə baş veribsə deyib. Akif Çovdarov da deyib ki, mən ölüb getsəm də, xofum sənin canından çıxmayacaq. Akif Çovdarov da Fərhad Əliyevin adını hallandırıb”.

**S.Səfərov prokurorluqda şikayətləri araşdırılan zaman çox maraqlı bir detalın da üzə çıxarıldığını söylədi:** “Hilal Əsədovun həyat yoldaşı Nüşabə Əsədova mətbuata açıqlamasında belə bir fikir işlətmişdi ki, heç bir obyektləri yoxdur. Mən Salman Cəfərov da buradan deyirəm, əlbəttə var, həm də Nüşabə Əsədovanın özünün adınadır. Bazar bizim əlimizdən alınıb və Akif Çovdarovla Hilal Əsədov bazarı dədə malı kimi aralarında bölüblər. Akif bazarı qızı Aydan Əmircanovanın, Hilal Əsədov isə həyat yoldaşı Nüşabə Əsədovanın adına keçirib. Nüşabə Əsədova Hilal Əsədovdan soruşsun, obyektləri sırasında bizim əlimizdən alınan bazar kimin adına rəsmiləşdirilib? Öz atasından da soruşa bilər.

## “Çingiz Əsədovu danışdıran Akif Çovdarov və Hilal Əsədovdur”

Biz prokurorluqda olana qədər elə bilirdik ki, təkcə bizim əmlakımız - bazar zorla əlimizdən alınıb. Orada isə bizim kimi onlarla adamı gördük. Bu gün Çingiz Əsədovu danışdıran Akif Çovdarov və Hilal Əsədovdur. Bunu hər kəs bilsin. Bizi Fərhad Əliyevin adı ilə şərləyib 11 il halal əmlakımızdan kənar qoyublar. Bizim qazancımıza sahiblənibələr, oğul-uşaqlarına ev-eşik alıblar. Haqqımızı yeyiblər. Bu gün isə cavab vermək, törətdikləri cinayətlərə görə məhkəmə qarşısında dayanmaq zamanıdır. Onun-bunun adını hallandırmaqla vəziyyətdən çıxmaq mümkün olmayacaq, bizə qarşı etdiklərinizə görə qanun qarşısında cavab verəcəksiz".

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

**ABŞ-da prezidentliyə namizədlər Donald Trampla Hillari Klinton arasında teledebatlar davam edir. İkinci teledebat oktyabrın 11-də Vaşinqton Universitetində baş tutub. Bəllidir ki, bu debat namizədlərin bir-birinin ünvanına sərt ifadələr işlətməsi ilə yadda qalıb.**

# ABŞ tarixinin qanadlı frazalarla zəngin prezident seçkisi

## Namizədlərin bir-birini, Obamanın isə namizədlərdən birini bəzəkli ifadələrə "qonaq etməsi"nin səbəbi; **ekspert:** "Bunun günahkarı Donald Trampın özüdür..."

Tramp 2005-ci ildə televerilişlərin birində qadınların ünvanına işlətdiyi xoşagəlməz ifadələrə hədəf olub, diqqəti sabiq prezident Bill Klintonu müxtəlif vaxtlarda layiqsiz davranışda ittiham etmiş qadınlara yönəldib. Klinton isə bu hadisənin son damla olduğunu və rəqibinin indiyə qədər qadınlar, meksikalılar, afro-amerikalılar, müsəlmanlar və hətta fiziki qüsuru olanlar haqqında ifadələrini onun prezidentliyə uyğun olmamasının sübutu kimi gördüyünü bildirib.

Tramp rəqibinin seçkilər zamanı verdiyi sözləri heç vaxt tutmadığını və xüsusilə son "e-mail məsələsi"ndə etibarı itirdiyini deyərək, prezident seçiləcəyi təqdirdə Klintonu həbs etdirəcəyini deyib, onun cinayət məsuliyyətinə cəlb ediləcəyini söz verib.

**ABŞ-dakı seçki kampaniyası başlayandan müşahidə olunan ən maraqlı məqamlardan biri prezidentliyə namizədlərin bir-birinə qarşı qanadlı frazalardan, bəzi hallarda aşağılayıcı ifadələr işlətməsidir. Hillari Klintonu dəstəkləyən hazırkı prezident Barak Obama da Donald Trampla bağlı hər dəfə çıxışında onu ələ salan qanadlı ifadələr işlədir. Məsələn, hələ bu ilin 17 fevralında Obama Trampın prezident olmayacağına inandığını deyib:** "Respublikaçı Donald Trump prezident olmayacaq, çünki bu, ciddi işdir. Seçicilər ona səs verməyəcəklər, çünki onlar başa düşürlər ki, prezident olmaq ciddi işdir. Bu, realiti-şou verilişi aparmaq deyil, bu reklam deyil, bu marketinq deyil, bu çətin bir işdir".

**Çıxışlarının birində isə Obama Trampı əsl komediya aktyoru adlandırıb. ABŞ prezidenti ənənəvi illik "Ağ Ev müxbirləri"nin şam ziyafətindəki çıxışında ziyafətə dəvət olunsa da iştirak etməyən Donald Tramp haqda belə deyib:** "Yəqin Donald Tramp indi evində Tramp bifşteksi yeyir, ya da Angela Merkelə təhqiramiz tvit yazır. Respublikaçıların isteblişmenti əndişədədir ki, Trampın prezident olmaq üçün xarici siyasət təcrübəsi yoxdur. İnsafən demək lazımdır ki, o, illər ərzində bütün dünya boyunca liderlərlə görüşüb. Məsələn, Miss İsveç, Miss Argentina, Miss Azərbaycan..."

Obama bu atmacası ilə Donald Trump-ın Kainat Gözəli (Miss Universe) yarışındakı fəaliyyətinə "ilişib".



**Bugünlərdə isə Obama Tramp haqda belə deyib:** "Ona heç bir marketdə iş vermək olmaz, nəinki prezident seçmək".

Hillari Klinton çıxışlarında Trampı "inanılmaz yalan ustası" adlandırıb. O qeyd edib ki, Tramp prezident seçkilərinin yox, dünyada yalançıların yarışı keçirilsəydi, həmin yarışmanın qalibi olardı. D.Tramp da hər dəfə rəqibi haqda danışarkən "bəzəkli" ifadələr işlədir. Klintonu "usta xəyanətkar" adlandırıb. Klintona təklif edib ki, debatlarda özü ilə birlikdə əri Bill Klintonun keçmiş sevgililərini də gətirsin.

Bu tipli atmacaların sayını çoxaltmaq olar. Bəs ABŞ seçki qanunvericiliyində belə ifadələrə görə cəza tədbirləri nəzərdə tutulurmu?

**Siyasi şərhçi Bəxtiyar Hacıyev bildirdi ki, ABŞ-da seçkilərdə namizədlərin bir-birinin xarakterini, kimliyini, təcrübəsini, seçki keçirilən posta uyğun olub-olmamasını sorğulamaq, bəzən qarşı tərəfin şəxsi və peşəkar keyfiyyətlərini aşağılamaq normal sayılır. Hətta seçki texnoloqları bir namizədin lehinə reklam çarxları, materialları hazırladıqları qədər diqqətlə rəqib haqqında da mənfi reklam çarxları, materialları hazırlaya bilərlər. Hər bir normal seçki qərargahında rəqibin zəif tərəflərini, ictimaiyyətə açıqlamaq istəmədiyi məlumatları araşdıran xüsusi bir komanda olur:** "Lakin hər sahədə olduğu kimi, seçkilərdə də namizədlər rəqibə hücumda müəyyən etik sərhədləri gözləməyə çalışırlar. Çünki müəyyən növ hücumlar namizədin özünə qarşı istifadə edilə bilər, seçicilər hücum edilən tərəfi yox, hücum edəni dəstəkləməməklə cəzalandıra bilərlər. Bundan başqa isə seçki qanunvericiliyində rəqibin həmin posta layiq olmadığını sübut etmək üçün istifadə edilən fikirlərə görə cəzalar nəzərdə tutulmayıb. İndiki ABŞ prezidentliyinə seçkilərdə aşağı səviyyəli təhqirlərin, arqumentlərin ortaya çıxmasının səbəbi isə Donald Tramp özüdür. O, ilkin seçkilər zamanı öz rəqiblərini ABŞ seçkilər tarixində olmayacaq qədər aşağı səviyyəli təhqirlərlə aşağılamışdı. İndi onun özünə bu şəkildə cavabların verilməsi normaldır".

❑ Etibar SEYİDAĞA

# "FES uçot dərəcəsini iki-üç dəfə artıra bilər"

## Ekspertlər gözləntilərini açıqlayırlar; ABŞ-da iqtisadi artım tempinin azalması və inflyasiya əsas səbəblərdir...

**ABŞ Federal Ehtiyatlar Sisteminin (FES) uçot dərəcəsini artıracağı yenidən müzakirə edilir. Hətta FES rəhbəri Canet Yellen də bir müddət əvvəl Konqresdə çıxışı zamanı uçot dərəcəsinin cari ilin sonunadək artırılacağını istisna etməyib. Ekspertlər isə bildirirlər ki, maliyyə bazarlarındakı vəziyyət 2015-ci ilin sonunda baş verən mənfi tendensiyanı təkrarlaya bilər.**



Yəni ABŞ iqtisadiyyatından gələn müsbət göstəricilər Federal Ehtiyat Sisteminin (FES) uçot dərəcəsini artırması ilə bağlı ehtimalları gücləndirib. Belə ki, ABŞ-ın "Goldman Sachs" bankının hesabatına əsasən, noyabrda FES-in uçot dərəcəsini artırmaq ehtimalı 10 faiz, dekabr üçün isə 65 faiz təşkil edib. Nəticədə qlobal valyuta bazarında dolların məzənnəsi digər valyutalarla müqayisədə möhkəmlənməyə başlayıb. Belə ki, əsas valyuta cütlüyü hesab olunan USD/EUR məzənnəsi dünəndən etibarən 1 faiz azalaraq 1,1070 səviyyəsinə kimi geriləyib. Bu isə keçən ilin sonunda baş verənlərin təkrarlanmasına yol aça bilər.

Xatırladaq ki, keçən ilin oktyabr ayından etibarən dollar indeksinin 7 faiz artması nəticədə dekabrda FES-in uçot dərəcəsini artırmasına səbəb olub. Lakin daha sonra dünya bazarlarında sərt dalğalanmalar FES-i növbəti faiz artırımı qərarından vaz keçməsinə gətirib çıxarıb. Son bir il ərzində isə ABŞ iqtisadiyyatı daha da güclənib.

Neft bazarında da 2015-ci ilin sonuna bənzər tendensiya müşahidə olunur. Avqustdan oktyabra qədər artan neft qiymətləri daha sonra sərt bir şəkildə azalmağa başlayıb. Qeyd edək ki, tezliklə ABŞ Federal Açıq Bazar Komitəsi (FOMC) protokollarını açıqlayacaq. Protokolların nəticəsinə görə, dekabr ayında faizlərin artırılması ehtimalı 100 faizə qədər yüksələ bilər. Əgər maliyyə bazarları dolların möhkəmlənməsi trendinə başladığını qəbul edərsə, tezliklə neft qiymətlərinin baha olduğunu da anlayacaqlar. O zaman hətta neft hasilatının azaldılması və ya dondurulması neftin qiymətini xilas edə bilməyəcək. "Report"un analitik qrupu ilin sonuna qədər USD/EUR məzənnəsinin paritetə yaxınlaşacağını, neft qiymətlərinin isə 28-35 dollar/barelə qədər enəcəyini proqnozlaşdırır.

**Ekspert Fikrət Yusifov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, faiz dərəcələrinin artırılması dəqiq deyil:** "Bu il ərzində artıq neçənci dəfədir ki, Federal Ehtiyat Sisteminin faiz dərəcələrini qaldıracağı deyilsə də, hər toplantıdan sonra bunun baş vermədiyi aydın olur. Məsələnin hər dəfə gündəliyə çıxarılması onun aktuallığından xəbər verir. Lakin məlumdur ki, hər dəfə bu qərarın qəbul edilməməsinin başlıca səbəbi ABŞ iqtisadiyyatının bir sıra mühüm göstəriciləri üzrə nəzərdə tutulan nəticələrin əldə oluna bilməməsidir. Növbəti toplantıda da müsbət qərar qəbul ediləcəyinə heç bir təminat yoxdur".

**Ekspertin sözlərinə görə, ilin sonuna doğru bəzi göstəricilərin müəyyən qədər pisləşməsi hiss olunur:** "Uçot dərəcəsi qaldırılarsa, bunun dünya valyuta bazarlarına müəyyən təsiri təbii ki, olacaq. Azərbaycan maliyyə bazarına isə bunun daha çox psixoloji təsiri mümkündür ki, bu da bir neçə gün ərzində sakitləşəcək".

Qeyd edək ki, ekspertlər ABŞ dollarının avroya qarşı məzənnəsinin ikinci sessiya dalbadal möhkəmləndiyini bildirirlər. Buna səbəb Federal Ehtiyatlar Sistemi (FES) tərəfindən uçot dərəcəsinin artırılması ilə bağlı gözləntilərin artmasıdır. İlin sonunadək FES tərəfindən uçot dərəcəsinin artırılması ehtimalı iyun ayından etibarən ən yüksək səviyyəyə- 68 faizə çatıb. "Pacific Investment Management Co."nun (PIMCO) ekspertləri hesab edirlər ki, FES 2017-ci ilin sonunadək uçot dərəcəsini 2, hətta 3 dəfə artıra bilər. Bunun əsas səbəbi kimi ABŞ-da iqtisadi artım tempinin azalması və inflyasiya göstərilir. İnflyasiya ilə bağlı gözləntiləri neftin qiymətinin artması gücləndirir. Ötən gün Brent markalı neftin 1 barelinin dəyəri 53 dolları ötüb. Həmçinin bildirilir ki, Hillari Klintonun ABŞ prezidentliyinə namizədlərin ikinci teledebatında qələbə qazanması da dollara müsbət təsir edir. Çünki investorlar H.Klintonun siyasətini daha proqnozlaşdırılan hesab edirlər.

❑ RÖYA



# "Rusiyada azərbaycanlı miqrantlarla bağlı heç bir problem yoxdur"

**"Bu gün ümumilikdə Azərbaycan Respublikası, o cümlədən miqrasiya məsələlərinə nəzarət edən bölmələrlə işləmək və istirahət etmək məqsədilə Rusiyaya gələn Azərbaycan vətəndaşları ilə münasibətlərdə heç bir problem görmürük".**

"Report" xəbər verir ki, bunu Rusiya daxili işlər nazirinin birinci müavini Aleksandr Qorovoy Bakıda keçirilən Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin miqrasiya orqanlarının rəhbərləri Şurasının 19-cu iclası çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

"MDB-nin yaradılmasından keçən 20 ildən artıq müddətdə ölkələr arasında mədəni, dost, ailəvi anlaşma formalaşıb", - deyə A.Qorovoy bildirib.

O, iki ölkənin miqrasiya xidmətlərinin qarşılıqlı əlaqə səviyyəsindən məmnunluğunu ifadə edib.

**Sentyabr ayında keçirilən hərbi paradda işğalçı Ermənistanın "İsgəndər" raket komplekslərini nümayiş etdirməsi, ardınca Azərbaycanı təhdid edən mövqeyin sərgilənməsi və təmas xəttində atəşkəsin pozulması hallarının artması danışıqlar yolu ilə tənzimlənməyə olan ümidləri heçə endirib.**






# Murovdağ yüksəkliyindən işğalçıya xəbərdarlıq

## Azərbaycan ordusunun komandanlığı təmas xətti boyu hərbçilərimizlə görüşdü, mühüm döyüş tapşırıqları verdi; təmas xəttində ASALA bayraqları qaldırıldı, Azərbaycan üçün unikal hərbi əməliyyat şansı yaranıb; **politoloq:** "Budəfəki müharibə apreldəkinə bənzəməyəcək"

Azərbaycan prezidentinin ötən həftə açıq mətnlə dediklərindən ortaya çıxan qənaət isə budur ki, böyük güclər qapalı danışıqlarda Bakıya Dağlıq Qarabağın müstəqilliyini tanımaq üçün təzyiqlər edirlər. Belə olan təqdirdə isə mənasız danışıqların növbəti raundunda iştirak edib də təzyiqlərlə üz-üzə qalmağa, üstəlik də işğalçının ələ keçirdiyi mövqelərdə möhkəmlənməsinə xidmət edən danışıqları davam etdirməyə ehtiyac qalmır. Elə bugünlərdə məlum olub ki, Dağlıq Qarabağ separatçıları işğal altındakı Azərbaycan ərazilərində müxtəlif layihələr həyata keçirməyə başlayıblar. Separatçılar Qarabağın münbit torpaqlarında sitrus meyvələrinin plantasiyalarını salmağa başlayıblar. Eyni zamanda Qarabağ balının xaricə çıxarılması istiqamətində hərəkətə keçiblər. Qarabağın baş separatçısı Bako Saakyan isə oktyabrın 12-də Hadrut rayonuna gələrək burada yeni mənzillərin açılışını edib. Görünən budur ki, aprel döyüşlərindən sonra ciddi şəkildə təşvişə düşən düşmən son aylarda özünün himayədarlarının dəstəyinə ümid edərək ərazilərimizin yağmalanması işinə start verib. Bütün bunlar isə Ermənistanın islah olunmayacağı qənaətini möhkəmləndirir və terrorçularla silah dilində danışmağı zəruri edir.

Elə Azərbaycan ordusunun rəhbərliyi də vəziyyəti real qiymətləndirərək hərəkətə keçib. Son iki gündə müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub. Nazirliyin rəsmi saytının məlumatına görə, Azərbaycan Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətindəki Odundağ zirvəsi və Murov dağı bölgəsindəki bölmələrdə olan müdafiə naziri üzbəüz yerləşən düşmən mövqelərini müşahidə edib.

Müdafiənin ön xəttində döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən müdafiə naziri hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə tanış olub. Dağlıq ərazidə və çətin iqlim şəraitində düşmənlə qarşıdurma xəttində yerləşən bölmələrdə müdafiə nazirinə ərazidəki əməliyyat şəraiti barədə ətraflı məruzə edilib. Səngərlərdə döyüş növbəsi çəkən hərbi qulluqçular Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini və Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hər an döyüşə hazır olduqlarını bildiriblər.

Nazir hərbi qulluqçuların atəş və taktiki hazırlıq məşqləri keçdiyi təlim-atış mərkəzində də olub. Müdafiə nazirinə poliqon haqqında məlumat verilərək bildirilib ki, ərazidə cəbhə xəttindəki vəziyyətin modelləri vasitəsilə real döyüş şəraitinə uyğun təlimlərin keçirilməsi, düşmənin təxribat-kəşfiyyat cəhdlərinin qarşısının alınması, əks tədbirlərin görülməsi və digər praktiki məşqlərin keçirilməsi üçün şərait yaradılıb. Poliqonda şəxsi heyət silahlanmada olan atıcı silahlar, minaatanlar və qumbaraatanlardan istifadə etmək bacarığını daha da təkmilləşdirmək və təcrübələrini artırmaq imkanı əldə edir. Müdafiə naziri atış, taktiki sahə, kəşfiyyat, snayper hazırlığı kursu və digər təlim nöqtələrində praktiki hazırlıq çalışmalarını izləyib.

Müdafiə Nazirliyinin rəhbərliyi daha sonra artilleriyaçıların döyüş hazırlığını yoxlamaq məqsədilə ön xətdə yerləşən artilleriya hərbi hissə və bölmələrində olublar. Raket və artilleriya qoşunları bölmələrinin şəxsi heyəti ilə görüşən nazirliyin rəhbərliyi vəziyyətlə yerində tanış olaraq onların döyüş hazırlığını, döyüş vəziyyətində təlbiqini, idarəetmə fəaliyyətini və şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini yoxlayıb. Müdafiə naziri artilleriya bölmələri tərəfindən real döyüş şəraitinə uyğun tapşırıqların icrası ilə bağlı müvafiq tapşırıqlar verib.

**Cəbhə bölgəsində xidmət edən şəxsi heyətlə görüşən Zakir Həsənov düşmənə növbəti xəbərdarlığını edib:** "Düşmən tərəfinin istifadə edə biləcəyi bir neçə qurğuya cavab olaraq Silahlı Qüvvələrimiz sərəncamındakı minlərlə raketlərdən, döyüş vasitələrindən cavab verməklə həmin raketləri vura bilməyə və düşmənin istənilən məsafədəki bütün hərbi infrastrukturunu məhv etməyə qadirdir. Ermənilərin həmin raketlərdən istifadə barədə səsləndirdiyi hədələr isə uydurmadan başqa bir şey deyil. Aprel döyüşləri qarşı tərəf üçün bir dərs olmalı idi. Lakin görünür, onlar bu zərbədən nəticə çıxarmayıblar. Düşmənin növbəti təxribatına veriləcək cavab daha dağıdıcı və sarsıdıcı olacaq, onu tam məhv edəcək".

*****

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Rusiyanın Ermənistanı "İsgəndər" raketləri ilə təchiz etməsi rəsmi Bakını xeyli hərəkətə gətirib:** "Bölgədə bütün dəngələr dəyişib. Birincisi, prezident İlham Əliyev Rusiyanın adını çəkmədən Ermənistanı silahlandıranları tənqid etdi. Ermənistanı silahla yalnız bir ölkə təchiz edir. Ona görə də tənqidin ünvanı bəlli idi. İkincisi, son günlər Azərbaycan ordusunda hərbi təlimlərin sayı xeyli artıb. Müxtəlif növ təlimlər və artilleriya atəşləri həyata keçirilir. Bu da Ermənistanın "İsgəndər" raketlərinə yiyələnməsi ilə bağlıdır. Üçüncüsü, Azərbaycan işğalçının "İsgəndər" raketlərini neytrallaşdırmaq üçün həm xaricdən müasir raket kompleksləri almağı planlaşdırır, həm də yerli hərbi-sənaye kompleksi raket komplekslərinin istehsalına başlayır. Dördüncüsü, müdafiə naziri Zakir Həsənovun son açıqlaması da diqqəti çəkir. Zakir Həsənov Azərbaycanın düşmənin "İsgəndər" raketlərini məhv edəcək müasir silahları olduğunu bildirdi. Yəni bu bir növ Azərbaycan cəmiyyətinə mesaj idi ki, Azərbaycan ordusunun əlində "İsgəndər" raketlərindən də güclü silahı var".

E.Şahinoğlunun fikrincə, bu, həm də Ermənistan cəmiyyətinə mesajdır: "Beləliklə, bölgədə silahlanmanın miqyası getdikcə genişlənir. Bunun günahkarı işğalçı Ermənistan və onun havadarı Rusiyadır. Əgər bu iki dövlət Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində addım atmaq istəmirsə, onda növbəti hərbi qarşıdurmanın qarşısını almaq çətin olacaq. "Biz müharibə istəmirik" ifadəsini hamı işlədir, ancaq bunun baş verməməsi üçün münbit zəmin yoxdur. Danışıqlarda heç bir irəliləyiş müşahidə olunmur. Bunun alternativi hərbi toqquşmadır. Cəbhə bölgəsində gərginlik getdikcə artır".

**Politoloq növbəti savaşın dəhşətli olacağına şübhə etmir:** "Budəfəki müharibə apreldəkinə bənzəməyəcək. Biz bir az da, türklər demişkən, dəliqanlı olmaq məcburiyyətindəyik. İşğalçı bu dəfə elə zərbə almalıdır ki, müharibənin davamının ona baha başa gəldiyini anlasın. Düşmən anlamalıdır ki, müharibə nəinki onların Dağlıq Qarabağ üzərindəki nəzarətinin itirilməsinə gətirib çıxaracaq, total müharibənin nəticələri Ermənistanın özündə də hiss olunacaq. Əlbəttə, bu halda bizim də itkilərimiz olacaq, ancaq biz buna daxilən hazırıq, çünki nəyin uğrunda savaşdığımızı bilirik. Ermənistan vətəndaşlarını ölümə göndərən separatçılar isə bu itkiləri xalqlarına necə izah edəcəklər? Həm də düşmən anlamalıdır ki, əgər "İsgəndər" raketlərindən Azərbaycana qarşı istifadə etsələr, müharibə yalnız Dağlıq Qarabağ və ətraf rayonları əhatə etməyəcək, total müharibənin bütün qanunları işləyəcək, müxtəlif istiqamətlərdən Ermənistana "hücum" əmri veriləcək".

Qeyd edək ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti burada fəaliyyət göstərən, yerli şəraitə uyğunlaşdırılmış mobil səhra hospitalında da olublar. Müdafiə Nazirliyinin mətbuat xidməti bu barədə məlumat yayıb. Ən müasir tibbi avadanlıqla tam təchiz edilən və müharibə şəraitində ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulan mobil səhra hospitalında yaradılan şəraitlə tanış olan müdafiə naziri müvafiq tapşırıqlarını verib. Bu kimi hazırlıqlar isə ordunun müharibə hazırlıqlarından xəbər verir.

Yeri gəlmişkən, düşmən Azərbaycanı günahlandırmaqdan da çəkinmir. Bir həftə əvvəl Lələtəpə istiqamətində xidmət edən əsgərimizi snayperlə qətlə yetirən erməni tərəf 11 oktyabrda "daxili qarşıdurmalar" səbəbindən ölmüş erməni əsgərinə görə Azərbaycanı günahlandırır. Bu da düşmənin ənənəvi metodlarından biridir və çox güman ki, ardınca yeni təxribatlar olacaq. Erməni mediası 1989-cu il təvəllüdlü əsgər Sanasar Qriqoryanın ölümündə Azərbaycan ordusunu suçlu sayır. Ancaq artıq Azərbaycan tərəf düşmənin sərsəm iddiasını cavablandırıb.

Qeyd edək ki, Ali Baş Komandanın hökumətin iclasında dedikləri də bir sıra ekspertlər tərəfindən müharibə düyməsinin basılması kimi dəyərləndirilmişdi. Hesab olunur ki, ölkə rəhbərliyi düşmənin istənilən təxribatlarının dəf olunması və bunun ardınca işğalçıya sarsıdıcı zərbələr endirilməsində qərarlıdır.

Ermənistanın qudurğanlığı o yerə çatıb ki, Qarabağ ərazilərində terrorçu ASALA təşkilatının bayraqlarını sancmaqdan belə çəkinmirlər. Bu barədə modern.az xəbər yayıb. Belə ki, dünya birliyinin terror təşkilatı kimi tanıdığı ASALA qruplaşmasının bayrağı Qarabağdakı təmas xəttində asılıb. Bu fotofaktı ermənilər sosial şəbəkədə yayıblar. Onlar həmin bayrağın 2011-ci ildən bəri təmas xəttinin Tərtər rayonu istiqamətindəki döyüş mövqelərində asıldığını və Azərbaycan mövqelərindən göründüyünü yazırlar.

Əslində düşmən Azərbaycan üçün unikal bir şans yaradıb. Antiterror koalisiyasının üzvü kimi terrora qarşı mübarizə aparan, elə Əfqanıstana növbəti hərbi kontingentini iki gün əvvəl yola salan Azərbaycan öz ərazilərində gizlənmiş, beynəlxalq səviyyədə rəsmən tanınmış terrorçu birləşməyə - ASALA-ya qarşı hərbi əməliyyatlar keçirmək hüququ da əldə edib.

YENİ MÜSAVAT
N 226 (6547) 13 oktyabr 2016




# "Bunu Ramiz Əzizbəylidən gözləməzdim"

## **Aqil Abbas:** "Ermənilər o filmə baxıb və təhqir, söyüş yazıblar"

**Xalq artisti, tanınmış rejissor və aktyor Ramiz Əzizbəylinin kinomuzun son vəziyyəti haqqında səsləndirdiyi fikirlər birmənalı qarşılanmayıb. Hətta bu, qalmaqala səbəb olur. Xalq artistinin "Son 10 ildə çəkilən filmlər "vozduxdur"" deməsi deputat, Azərbaycan Yazıçılar Birliyinin üzvü Aqil Abbası hiddətləndirib. Deputat xalq artistini rejissorların işini, zəhmətini yerə vurmaqda suçlayıb: "Ramiz Əzizbəyliyə həm rejissor, həm də sənətkar kimi böyük hörmətim var. Amma Ramiz Əzizbəyli deyir ki, son 10 ildə çəkilən filmlər "vozdux"dur. Halbuki son 10 ildə çox gözəl filmlər çəkilib və həmin filmlər beynəlxalq festivallarda nümayiş olunub, layiqli yerlər tutublar. Son 10 ildə çox yaxşı filmlər çəkilib axı. İndi bir-bir adlarını da çəkə bilərəm. Ramiz müəllimin belə bir söz deməsini heç gözləməzdim".**

Aqil Abbas onun eyni adlı romanına çəkilən "Dolu" filmini son illərdə çəkilən ən baxımlı film adlandırıb: "Mənim "Dolu" filmimə gəldikdə isə o film youtbe-da 3 kanalda qoyulub. Təxminən 300 min adam o filmə baxıb. Hələ Azərbaycan dilində olanını deyirəm. Onun alt yazısı ilə türk, gürcü, rus variantı da var. İnternet resurslarında onların hamısını yerləşdirməmişik, yalnız azərbaycanca olanıdır. Ermənilər də o filmə baxıb və təhqir, söyüş yazıblar. Başqa millətlərdən də ona baxanlar olub. Baxmışam, hətta film haqqında 420 şərh var. Sözümü ona gətirirəm ki, o romanı mən yazmışam, 20 ilə yazdığım romandır, içimdə yaşatdığım, həyatda yaşadığım romandır. Yəni o filmdə nə varsa hamısını yaşamış adamam... Döyüşlərdə qucağımda ölənlər, əlimə dəfn etdiyim insanlar...

Yaxud gedib ermənilərin cəsədlərini gətirmişəm. Yəni o insanları görmüşəm, yaşamışam, yazmışam.

Film çox böyük uğur qazanıb. Filmi əməkdar incəsənət xadimi Elxan Cəfərov çəkib. O, bir çox savaş filmləri çəkib. Hamısı da uğurludur. Yəni bu dərəcədə filmlərə yuxarıdan aşağı baxmaq... Bunu, sadəcə, Ramiz Əzizbəylidən gözləməzdim, vəssalam. Ona böyük hörmətim var, amma rejissorların əməyini, zəhmətini yerə vurmasın!"

**Deputat yeni çəkilən filmlərin az təbliğ olunmasından da şikayətləndi:** "Televiziyalar yeni çəkilən filmlərə çox az müraciət edir. Məsələn, "Əhməd haradadır?" filmini hər həftə bir televiziya kanalı nümayiş etdirir. Keçmiş filmləri daha çox göstərirlər, nəinki yenilərini. Görünür, keçmiş filmlərə pul vermirlər, amma yenilərə 50-60 manat vermək lazım gəldiyi üçün onlara müraciət etmək marağında deyillər. "Dolu" kimi filmləri də işğal, müharibə günləri bütün kanallar verir. Baxanda mən də pərt oluram. Başqa günlər onları göstərmək ayıbdır?"

❑ **Xalidə GƏRAY**

# Tələbələr niyə intihar edir...

**Son illər gənclərin, xüsusən də tələbələrin intihar etməsi halları artıb. Bu, həm təhsil, həm də sosial problemlərlə əlaqəlidir. Ali məktəblərin kredit sisteminə keçməsi tələbələrdə müəyyən narahatlıqlar da yaradıb ki, bu, onların psixologiyalarına ciddi təsir edir. Heç yerdən gəliri olmayan tələbənin tək düşüncəsi bu kəsir kreditini ailəsinə yük olmadan necə ödəməsiylə bağlıdır.**

Əgər tələbənin ali məktəbdə hansısa bir fəndən kəsiri olarsa, o həmin fənnin əlavə tədrisinə görə pul ödəməli, daha sonra həmin fənn üzrə dərslərdə təkrar iştirak etməli və yenidən imtahan verməlidir. Kreditin qiyməti isə tələbənin neçə balla kəsilməsindən asılı olaraq dəyişir. Vay o günə ki, tələbənin bir yox, bir neçə kəsiri olsun.

Təbii ki, tələbələrin canına qəsd etməsini sırf bu səbəblə bağlamaq da düzgün olmazdı. Məsələn, oktyabrın 10-da Bakı Ali Neft Məktəbinin 4-cü kurs tələbəsi, 22 yaşlı Hüseyn Abbasov özünü yaşadığı yataqxananın 11-ci mərtəbəsindən ataraq intihar etdi. Ali məktəbə qəbul olarkən 670 bal toplayan tələbənin intihar etməsi nə qədər dəhşətlidirsə, bir o qədər də müəmmalı qaldı. Tələbənin kəsiri olduğu deyilsə də, bu səbəb deyil. Çünki Bakı Ali Neft Məktəbində kəsirə görə kredit ödənilmir. Hüseynin atasının təkidi ilə orada təhsil aldığı və təhsil müəssisəni dəyişmək istədiyi qeyd edilir. Ancaq atası buna qarşı çıxıb. Hüseyn intihar edən ilk tələbə deyil. 2016-cı il ərzində 5 tələbə canına qıyıb. Fevralın 8-də Kooperasiya Universitetinin 3-cü kurs tələbəsi Nigar Vahabova da yaşadığı mənzildə intihar etmişdi. İyun ayında Ağdam rayonu, Mirəşelli kənd sakini, Sumqayıt Dövlət Universitetinin 3-cü kurs tələbəsi Əfqan Məmmədov Sumqayıtda kirayə qaldığı evdə intihar etmişdi. Yanvar ayının 10-da isə Sumqayıt Dövlət Universitetinin 1-ci kurs tələbəsi Rumiyyə Qasımova imtahandan kəsildiyi üçün özünü dənizə atıb.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının tələbəsi Aysel Ağaməmmədova da 17-ci mərtəbədən özünü ataraq öldürüb. Səbəb isə nişanlısından ayrılması olub.

Göründüyü kimi, tələbələrin intihara cəhdləri müxtəlif səbəblərdən baş verir.

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev bildirdi ki, təhsil müəssisələrinin rəhbərləri uşaqlarla münasibətdə həddindən artıq ehtiyatlı olmalıdır:** "İntihar fenomeni çox mürəkkəbdir. Bu barədə cildlərlə kitablar yazılıb. Təəssüflər olsun ki, bizdə bu istiqamətdə ciddi tədqiqatlar aparılmır. Çox vaxt biz intiharı özünü öldürənin psixoloji durumu ilə əlaqələndiririk. İndiki dövrdə uşaq, yeniyetmə və gənclərin oxuduqları təhsil müəssisələrinin rəhbərliyi onlarla münasibətdə həddindən artıq ehtiyatlı olmalıdırlar. Televiziyalar və digər Kütləvi İnformasiya Vasitələri intiharların qarşısının alınması istiqamətində heç bir iş görə bilmir. Bununla bağlı danışanlar isə çox vaxt diletantlar olurlar. Ali məktəb tələbələrinin kəsrlərlə bağlı əlavə vəsait ödəmələri halları ucbatından kritik duruma düşüb intihara əl atmaları 1-2 nəfər istisna olmaqla, geniş yayılmayıb. Bakı Ali Neft Məktəbinin tələbəsinin intihar etməsini bununla bağlamaq tamamilə yanlışdır. Bu ali məktəbdə təhsil pulsuzdur. Və burada tələbədən kəsrlərə görə vəsait tələb olunması qeyri-mümkündür. Neft məktəbindən də bildirdilər ki, onun psixoloji durumunda problem olub. Bakı Ali Neft Məktəbi normal təhsil mühiti olan ali məktəblərimizdən biridir. Bu gün gənclər və yeniyetmələr sosial şəbəkələrdən geninə-boluna istifadə edirlər. Məncə, onların daha çox kitab oxumağa cəlb olunması üçün maarifçilik işləri gücləndirilməlidir. Buna uşaqların məktəb yaşından başlamaq lazımdır. Açıq danışaq. Yanlış dini-ekstremist təbliğatların da mənfi təsiri özünü göstərməkdədir. Çox vaxt gənclərin valideynləri ilə mübahisələri onların sosial şəbəkələrdən ifrat şəkildə istifadə etmələri, siqaret və spirtli içkilərə qurşanmaları, radikal dini cərəyanlara meyllənmələri ilə bağlı olur. Buraya valideynlərin uşaqlarının ixtisas seçimi istəklərinə qarşı çıxmalarını da əlavə etmək olar. Bunlarla bağlı onların iradəsinin əleyhinə gedildikdə uşaqlar psixoloji sarsıntı keçirir və belə durumlar həm də intiharla nəticələnir. Cəmiyyətdə nizam-intizam qaydalarının qorunması üçün böyüklərdə maraq olmalıdır. Belə marağı çox vaxt hiss etmirik. Özgələşmə dəhşətli dərəcədə dərinə işləyib. İntihar və digər sosial bəlalarla mübarizə üçün populyar ədəbiyyatlar yox səviyyəsindədir. Belə olan halda nədən başlamaq lazım gəldiyini çox vaxt bilmirik".



**Etibar Əliyev:** "İntihar və digər sosial bəlalarla mübarizə üçün populyar ədəbiyyatlar yox səviyyəsindədir"



**Dəyanət Rzayev:** "Bu gün sosial mühit də normal deyil"

**Psixoloq Dəyanət Rzayev bildirdi ki, gənclərin intihar etməsinin səbəbi yalnız təhsil deyil:** "Bu gün insanlar arasında sanki ali məktəbə giriş balı üstündə mübarizə, bəhs gedir. Halbuki bunun heç bir fərqi yoxdur. Ola bilər ki, intihar edən tələbə həssas olub. Bu gün belə bir mənfi münasibət var ki, kim az bal yığdı, kimin imtahandan kəsiri oldu o, qınaq obyektinə çevrilir. Onlar buna görə gülünc obyektivə çevrilməkdən qorxurlar. Kəsir olan zaman müəllimlər və valideynlərin özü bunu yumşaq qəbul etməlidir. Kəsirin var, imtahan verib keçəcəksən. Axı burada faciəli bir şey yoxdur. Təəssüflər olsun ki, bu gün belə bir pis yanaşma var. Gənclərin intihar etməsinə tək səbəb təhsillə bağlı deyil. Bu gün sosial mühit də normal deyil və insanlar daxilində sanki bir qorxu yaşayırlar. Tələbənin 4 kəsiri varsa, o, ali məktəbdən qovulmaqdan qorxur. Valideynlər uşağı necə tərbiyə edirlər, oxumasan gedib küçə süpürərsən və sairə. Valideynləri də qohumlar qıcıqlandırır ki, sənin uşağın oxumadı, kəsiri var və ya ali məktəbə girə bilmədi və sairə. Valideyndə özünün bisavadlığından başlayır uşağının üstünə düşməyə və onu qınamağa. Azərbaycanda insanlar ali təhsil almağa, nəsə öyrənməyə yox, diplom almağa üstünlük verirlər. İntihar edən tələbənin ailə mühitinin necə olduğunu bilmirik. 4 dənə kəsir onun intihar etməsi üçün sadəcə olaraq bir təkan olub. Elə tələbələr var ki, institutdan qovulur, heç intihar etmir. Bu gün bizdə təhsil sistemi çox bərbad vəziyyətdədir. Xarici ölkələrdə ali məktəbə qəbul imtahansızdır. Biz də isə qəbul imtahanını dəbə çeviriblər. Elə insanlar var ki, diplomları var, amma savadları yoxdur. Çoxu heç iş də tapa bilmir. Dünyanın ən dahi insanlarının heç ali təhsili olmayıb. Belə bir nüansda var ki, ifrat savadlılar əksər vaxt xoşbəxt olmur. Orta bilik səviyyəsi olan insanlar həmişə həyatda uğur qazanır və xoşbəxt olur".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 226 (6547) 13 oktyabr 2016

# Banklar bank olmayan kredit təşkilatlarına necə çevrilir...

## Ekspertlərin fikrincə, ölkə iqtisadiyyatının kiçilməsi fonunda "kredit bataqlığı"nın inkişaf etdirilməsi təhlükəlidir...

**Bağlanan bəzi banklar bank olmayan kredit təşkilatına (BOKT) çevrilməyə maraq göstərir. Son olaraq lisenziyası ləğv edilmiş "Parabank" bank olmayan kredit təşkilatına (BOKT) çevrilməklə bağlı Maliyyə Bazarlarına Nəzarət Palatasına müraciət edib. Bildirilir ki, bankın BOKT-a çevrilməsi üçün bir sıra hüquqi prosedurlar həyata keçirilməlidir.**

"Bunlar arasında ən əsası bank əmanətlər üzrə bütün öhdəliklərini həyata keçirməlidir. Hazırda "Parabank"da qorunan əmanətlərin ödənişi bitib və qorunmayan əmanətlərin ödənişinə başlanılıb. Düşünürük ki, bu proses 1 ay ərzində bitəcək və o zaman biz bu müraciətə müsbət baxacağıq",- deyə Maliyyə Bazarlarına Nəzarət Palatasının məlumatında vurğulanır. Palatadan o da bildirilib ki, lisenziyası ləğv edilmiş digər banklardan da BOKT-a çevrilməyə maraq göstərənlər olub. (APA)

**Ekspertlər isə musavat.com-a açıqlamalarında prosesin mümkünsüzlüyünə diqqət çəkiblər. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, bağlanan bankların BOKT-a çevrilməsi mümkün deyil:** "İstənilən halda bağlanan bankın bank olmayan kredit təşkilatına çevrilməsi mümkün deyil. Çünki artıq bağlanıb. Onun öhdəlikləri onsuz da bank olmayan kredit təşkilatına keçə bilməz. Çünki bank olmayan kredit təşkilatı əmanət qəbul edə bilməz. Əsas fərq də odur. Bank əmanət qəbul edə bilər, bank hesabları aça bilər. Bank olmayan kredit təşkilatı hesab aça bilməz, əmanət qəbul edə bilməz. Bank olmayan kredit təşkilatı bunu edə bilmirsə, necə çevriləcək? Bu əmanətlər, bank hesabları oraya gedə bilməz. Bu, sadəcə, demaqogiyasdır. Yəni gözdən pərdə asmaqdır. Həmin bankların çoxlu borcları var və həmin şəxslər yəqin ki, direyiblər o bank sahiblərini və borclarını istəyirlər. Onlar da bir sözdür, atıblar ortalığa. Yəni bağlanan bankın təsisçiləri bank olmayan kredit təşkilatı təsis edə bilərlər. Amma bunun banka aidiyyəti yoxdur. Bu, o demək deyil ki, bank BOKT-a çevrildi. Bu bankların ləğvi öz axarı ilə gedəcək".

**Ekspert Elşad Məmmədov isə musavat.com-a açıqlamasında deyib ki, bir sıra lisenziyaları ləğv edilmiş bankın bank olmayan kredit təşkilatları şəklində fəaliyyət göstərməsinə cəhd etməsi həmin bankların hər hansı bir formada ölkənin bank-maliyyə sektorunda təmsil olunmaq arzusu ilə izah olunur:** "Düşünürəm ki, həmin bankların təsisçiləri iqtisadi cəhətdən mürəkkəb durumda, o cümlədən kredit resurslarına çıxış imkanlarının məhdudlaşdığı dövrdə kredit bazarına yenidən çıxış əldə edərək, istehlakçıları öz kredit sistemlərinə cəlb etmək niyyətindədirlər. Əslində dünya təcrübəsi müəyyən şərtlər daxilində belə qurumların maliyyə bazarlarında rəqabət mühitinin


Əkrəm Həsənov


Elşad Məmmədov

formalaşmasına xidmət etmələri hallarının olmasını göstərir. Lakin hazırkı iqtisadi vəziyyətdə hesab edirəm ki, bu addımlar konstruktiv sayıla bilməz".

**Ekspertin sözlərinə görə, bunu bir sıra amillərlə izah etmək olar:** "Əvvəla, ölkənin bank-maliyyə sektorunda kredit təşkilatlarının mövcud sayı belə tələb olunandan xeyli çoxdur və iqtisadi cəhətdən bu təşkilatların sayının azaldılma istiqamətində optimallaşdırılması və bu sektorun sağlamlaşdırılması zəruridir. Eyni zamanda bank şəklində fəaliyyət göstərdiyi zaman bu təşkilatların menecmentlərində ciddi problemlər olub və onların idarəetmə sistemində belə tez müddətdə hansısa inqilabi dəyişikliklərin baş verməsi real deyil".

**E.Məmmədov qeyd edib ki, ölkə iqtisadiyyatının kiçilməsi fonunda "kredit bataqlığı"nın inkişaf etdirilməsi daha da zərərli və təhlükəlidir:** "Nəzərə almaq lazımdır ki, kreditlərin böyük hissəsi faktiki olaraq iqtisadiyyatın real sektorunun deyil, istehlak kreditləri vasitəsilə idxalın və deməli, xarici istehsalçıların maliyyələşdirilməsinə yönəldilməkdədir. Hökumətin idxalın azaldılması istiqamətində səylərinin fonunda bu addımların ölkədə aparılan makroiqtisadi siyasətlə uzlaşmaması göz qabağındadır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, dünya təcrübəsinə görə, funksional baxımdan bank olmayan kredit təşkilatları əsasən üç növə bölünür: hesablaşmalar, ödənişlər və depozit-kredit əməliyyatları həyata keçirən qeyri-bank kredit təşkilatları. Birinci iki qrupa aid qurumlarda risk səviyyəsinin az olduğu halda, üçüncü qrupa aid təşkilatlarda risklərin səviyyəsi heç də ənənəvi bank sektorundan az deyil. Bu baxımdan, fəaliyyətləri dayandırılmış bankların yalnız qeyd etdiyim ilk 2 növdə nəzərdə tutulan istiqamətdə istehlakçılara effektiv xidmət göstərməsi mümkündür. Bununla belə, düşünmürəm ki, ləğv edilmiş banklar öz fəaliyyətini yalnız hesablaşma və ödənişlərin, pul köçürmələrinin təşkili istiqamətində qurmaq fikrindədirlər. Zənnimcə, onlar depozit bazarlarına qayıtmalarının mümkünsüzlüyünü dərk edərək, bunun real olmamasının fərqindədirlər. Bununla belə, ləğv edilmiş bankların təsisçiləri kredit bazarlarına geri dönərək, kredit resurslarının yerləşdirilməsində iştirak etməyə çalışırlar. Bu da məsələyə həm sosial, həm mikro, həm də makroiqtisadi prizmadan yanaşdıqda, fikrimcə, məqsədəuyğun hesab oluna bilməz".

❑ Röya RƏFİYEVA

# İstanbulda Qərbə qarşı ittifaqın əsası qoyuldu?

## Siyasi təhlilçilər ölkəmizin də yer aldığı toplantıdan sonra Azərbaycan və Türkiyənin Avrasiya İqtisadi Birliyinə üzv olacağı barədə iddiaları şərh etdilər

**"İstanbulda keçirilən Dünya Enerji Konqresindən və Türkiyə ilə Rusiya arasında imzalanmış "Türk axını" anlaşmasından sonra müşahidə edilən mənzərə Qərbə qarşı hansısa bir ittifaqın yarandığını deməyə əsas vermir".**

**Politoloq Elçin Mirzəbəyli** İstanbulda keçirilən 23-cü Dünya Enerji Konqresindəki mesajlar və əldə olunan razılaşmaları "Yeni Müsavat"a şərh edərkən söylədi: "Əvvəla, Türkiyə-Rusiya anlaşması "Türk axını"nın birinci mərhələsini əhatə edir. Bu isə yalnız Türkiyənin təbii qaza olan ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulub. Layihənin perspektivdə irəliyə nə qədər yürüyə biləcəyi cərəyan edəcək regional və qlobal geosiyasi proseslərdən asılıdır. Digər tərəfdən, Türkiyə ilə Rusiya arasında ziddiyyətlər öz həllini tam tapmayıb. Türkiyə hələ ki Avratlantik Alyansın üzvüdür və qardaş ölkənin qısa bir zaman ərzində bu hərbi-siyasi ittifaqdan üz döndərə biləcəyi inandırıcı deyil.


Elçin Mirzəbəyli


Arzu Nağıyev

İstanbulda keçirilən konqres çərçivəsində və ikitərəfli görüşlərdə verilən mesajları hərbi müdaxilə, təzyiq, təhdid, enerji və maliyyə bazarında iqtisadi əsasları olmayan manipulyativ manevrlər etmək yolu ilə dünyanın enerji resurları və nəqliyyat dəhlizləri üzərində tam nəzarəti həyata keçirməyə çalışan dairələrə qarşı alternativlərin ortaya çıxacağı barədə məxməri xəbərdarlıq kimi də dəyərləndirmək olar. Lakin bu xəbərdarlıq atılan və atılacaq addımların mahiyyətindən yox, ABŞ və müttəfiqlərinin yürütdüyü siyasətin qarşılığında özünüqoruma instinktindən doğan reaksiyadır. İndiki şəraitdə hadisələrin inkişafı ABŞ-da keçirilən seçkilərdən sonra yürüdüləcək siyasi xətdən və bu müstəvidə cərəyan edəcək proseslərdən asılıdır".

**E.Mirzəbəyli Azərbaycanla Türkiyənin Avrasiya İqtisadi Birliyinə qoşulmaları üçün fundamental əsasların olduğunu düşünmür:** "Buna mane olan səbəblər daha çoxdur - Azərbaycan torpaqlarının işğal altında olması, Rusiya-Ermənistan münasibətləri, Ankara ilə Moskva arasındakı ziddiyyətlər, Kremlin imperiya ambisiyaları və s. Rusiya Avrasiya məkanında tam dominant rola sahib olmaq istəyir. Bunun üçün də prosesə cəlb etmək istədiyi bütün ölkələrin digər əməkdaşlıq məkanları ilə bağlarını qırmaq, zəif salmaq taktikasına üstünlük verir. Azərbaycan və Türkiyə isə perspektivi bəlli olmayan, indiki halda daha çox təhlükə vəd edən bir məkana daxil olmaq istəməz".

**Politoloq Arzu Nağıyev də deyib ki, İstanbulda keçirilən görüşləri müsbət hal kimi qiymətləndirmək lazımdır:** "Əsas məsələlərdən biri Azərbaycanın regionda mühüm bir tərəfdaş və oyunçu kimi qəbul edilməsidir. Eyni zamanda Rusiya və Türkiyə arasında yaranmış gərginliyin aradan qaldırılmasında Azərbaycanın rolu danılmazdır. Bundan başqa əsas məsələlərdən biri "Türk axını" layihəsi ilə bağlıdır. Məlumdur ki, burada iki kəmərdən söhbət gedir. Biri Türkiyə və Rusiyaya aiddir, ikincisi isə Rusiya qazının Avropaya çatdırılması məsələsidir. Hər iki halda Azərbaycanın bu layihələrdə iştirakı qaçılmazdır. Gələcəkdə hətta Türkmənistan qazının da Azərbaycandan tranzit keçirməklə Avropaya çatdırılması mümkündür. Yəni Azərbaycanın istər Türkiyə, istərsə də Rusiya ilə münasibətləri müsbət məcrada inkişaf edə bilər və bu layihələrlə Avropanın enerji təhlükəsizliyi təmin edilə bilər. Digər tərəfdən, hər hansı bir siyasi maraqlardan doğan və Rusiyaya qarşı iqtisadi sanksiyalar baş verərsə, Azərbaycan layihədə aparıcı fiqur ola bilər. Düşünürəm ki, bunu Qərb də başa düşür və bu, heç də Qərbə qarşı hər hansı bir alyansın və ya ittifaqın yaranması demək deyil. Yəni söhbət əsasən iqtisadi maraqlardan gedir. Azərbaycan və Türkiyənin Avrasiya İqtisadi Birliyinə qoşulması məsələsi də inandırıcı görünmür. Çünki ilk növbədə Türkiyə NATO-nun üzvüdür və Qərblə qarşılıqlı öhdəlikləri mövcuddur. Azərbaycanın isə öz siyasi yolu var və bu balanslı bir siyasətdir".

**"Mən deməzdim ki, bu, Qərbə qarşı koalisiyadır. Əslində həmin layihələr demək olar ki, Qərb layihələridir, Qərbə istiqamətlənib. Ona görə də bunu "anti-Qərb layihəsi" saymaq olmaz". Bu fikirlər isə "Turan" agentliyinin direktoru Mehman Əliyevə məxsusdur. Ekspert "Yeni Müsavat"a onu da bildirdi ki, "Türk axını"nı TANAP-a alternativ saymır. Onun sözlərinə görə, 2004-cü ildə Qərb tərəfindən qəbul olunmuş Enerji Xartiyasında ilk vəzifə və tələb qaz-neft kəmərləri ilə əlaqədar olub:** "O zaman yalnız Rusiyadan köhnə sovet "Drujba"sı gedirdi, başqa kəmərlər yox idi. Ondan sonra "Şimal dəhlizi" yaradıldı, Avropaya çıxdı. Ardınca Türkiyədən "Cənub dəhlizi" açıldı. Həmçinin Azərbaycandan Bakı-Ceyhan və Qars kəməri getdi. Bu istiqamətdə proses getdikcə genişlənir və inkişaf edir. Yəni Qərb istəyir kəmərlərin sayı çox olsun ki, sabah bir yerdə nə isə baş verəndə problem yaranmasın, Qərb iqtisadiyyatı əziyyət çəkməsin, qarantiyalı olsun. Digər tərəfdən, monopoliyanın ortadan qaldırılması məsələsi də var. Monopoliya aradan götürüləndə qiymətlər də aşağı düşür".

**Ekspert Azərbaycan və Türkiyənin Avrasiya İttifaqına qoşulması perspektivini də şərh etdi:** "Türkiyə və Azərbaycanın, o cümlədən Rusiyanın öz maraqları var. Bu maraqlar heç də həmişə üst-üstə düşmür. Əgər sabah Avrasiya platformasında iştirak olsa, bu, o demək deyil ki, iştirak nəyəsə alternativdir. Çünki alternativ olmağa onun potensialı yoxdur, çox zəifdir. Özü də bu gün Avrasiya layihəsinə iştirak edən ölkələrin hamısı böhran içindədir. Əslində Azərbaycan, Rusiya, digər ölkələr də getdikcə Qərb iqtisadiyyatına inteqrasiya olunacaqlar. Artıq proses gedir və bunun alternativi yoxdur".

**M.Əliyev güman etmir ki, Putin Bakı və Ankaranın bu birliyə qatılmasını istəyir:** "Orda iştirak, sadəcə, iqtisadi maraqlar nöqteyi-nəzərdən ola bilər. Ondan o tərəfə heç nə ola bilməz".

❑ E.PAŞASOY

# Şəki bazarı yanıb, yoxsa yandırılıb?

**Oktyabrın 12-də səhər saatlarında Şəki bazarında güclü yanğın hadisəsi baş verib və nəticədə bazarın böyük bir hissəsi yanıb.**




Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Şəki şəhərində ümumi sahəsi 2 ha olan "Şəki Bazar" ASC-nin ərazisində 90 ədəd bir-birinə bitişik geyim əşyaları satışı konteyneri və 20 ədəd satış piştaxtasının yanar konstruksiyaları və içərisində olan mallar 1200 kvadrat metr sahədə yanıb. Bazarın qalan hissəsi yanğından mühafizə olunub.

Yanğın saat 08:40-da yanğınsöndürənlər tərəfindən söndürülüb. Yanğın nəticəsində sahibkarlara külli miqdarda ziyan dəyib. İlkin məlumata görə, yanğına səbəb elektrik qısa qapanması olub. Satıcılar onlara külli miqdarda ziyan dəydiyini deyir. Əksəriyyətinin mağazasının sığortası yoxdur. Dəymiş ziyanın necə kompensasiya olacağı ilə bağlı isə onlara heç nə deyilmıyib. Satıcılar çoxlu sayda nisyə mal verdiklərini, nisyə dəftərlərinin yandığını deyirlər.

Yanğının elektrik qısaqapanmasından baş verdiyi deyilsə də, bazarda çalışanlar buna inanmır. Onlar bazarın qəsdən yandırıldığını iddia edirlər. İddialardan biri odur ki, bazar Şəki şəhərinin mərkəzində yerləşdiyi üçün hansısa sahibkar həmin ərazini alıb və orada hotel tikdirmək istəyir.

Bazarda çalışanlar buradan köçmədikləri üçün bu yolla onları köçürmək istəyirlər. Digər iddia isə bir neçə ay əvvəl Şəkinin "Çöl yolu" deyilən ərazisində yeni bazarın açılması ilə bağlıdır. "Çöl yol"unda bazar açılsa da, bazarda çalışanlar yeni bazara köçmək istəmir. Satıcılar və mağaza sahibləri yeni bazara köçməmələrinin səbəbini həmin ərazinin şəhərin mərkəzindən uzaq və orada alver imkanlarının məhdud olması ilə izah edirlər.

Ona görə də bazarda çalışanların bir qismi onların məcbur qalıb, yeni bazara köçmələri üçün bazarın qəsdən yandırıldığını iddia edirlər. İndiki bazarın ərazisinin isə hotellə yanaşı, avtodayanacaq olacağı barədə də iddialar var. Xatırladaq ki, 3 il əvvəl də bu bazarda yanğın baş vermişdi.

❑ **Günel MANAFLI**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# «Bakcell» beynəlxalq zənglərin qiymətini 16 qəpiyə endirdi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti öz abunəçiləri üçün dəqiqəsi 2 dəfə ucuz qiymətə istənilən istiqamətdə beynəlxalq zənglər etməyə imkan verən yeni kampaniyaya start verdiyini elan edir.**

**Yeni kampaniyanın şərtlərinə görə, indi «Bakcell» abunəçiləri həftəsonu, bayram, qeyri-iş günləri və qeyri-pik saatlarında (00:00-dan - 08:00-dək) başqa ölkələrə etdikləri beynəlxalq zənglərin hər dəqiqəsinə görə cəmi 0.16 AZN ödəyəcəklər. Pik saatlarında beynəlxalq zənglərin qiyməti isə 1 dəqiqəsi 0.32 AZN hesabı ilə dəyişməz olaraq qalır.**

**Bu yeni tarif planını təqdim etməklə, «Bakcell» bazarda olduqca sərfəli və müsbət beynəlxalq rabitə təcrübəsini təklif edir.**

**"Bu yeni təklifi ilə «Bakcell» öz abunəçilərinin dünyanın müxtəlif guşələrində yaşayan dostları və ailə üzvləri ilə əlaqə yarada bilməsini daha da asanlaşdırır. İnanırıq ki, qiymətin endirilməsi insanların təyinat ölkəsindən asılı olmayaraq daha tez-tez beynəlxalq zənglər etməsi və istədikləri qədər danışması üçün daha bir əsas yaradacaq",-deyə «Bakcell» şirkətinin baş marketinq və satış direktoru cənab Fedja Hadziç bildirib.**

**«Bakcell» öz abunəçiləri üçün sərfəli tariflər təklif etməkdə davam edəcək.**


**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Əziz oxucular, xaricdə və Azərbaycanda nəşr olunan qəzet və jurnallara abunə olmaq
həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə
və daha qısa vaxt ərzində əldə etmək üçün zəng etməyiniz və ya
email(kioskum.az@gmail.com)yazmağınız kifayətdir.

**Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!**

*Telefon: (012) 434-93-01*

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 051- 634- 40-01; 070-888-91-50**


# Bakıda dini sektaya qoşulan qadın 5 yaşlı oğlunu öldürdü

**Bakıda dini təriqət üzvü olan qadın 5 yaşlı oğlunu boğaraq qətlə yetirib. "Report"un hüquq-mühafizə orqanlarından əldə etdiyi məlumata görə, hadisə paytaxtın Yasamal rayonu D.Bünyadzadə küçəsi ev 15 ünvanındakı mənzillərindən birində baş verib.**

Məlumata görə, orada yaşayan 2011-ci il təvəllüdlü Fərid Quluzadənin meyiti aşkar olunub.

Məlum olub ki, uşağı xristian yönümlü təriqətin üzvü olan anası Nazilə Qulubəyova öldürüb. Belə ki, N.Qulubəyova "pis ruhları çıxartmaq" üçün oğlunun ağız nahiyəsinə əski parçası tutaraq sıxıb. Nəticədə azyaşlı ölüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.

# Qobuda market sahibi güllələndi

**Abşeron rayonunun Qobu qəsəbəsində qətl törədilib. Gununsesi.info-nun əməkdaşının əldə etdiyi xəbərə görə, Qobu qəsəbəsində qəsəbə sakini, 1975-ci il təvəllüdlü Rövşən Rafiq oğlu Abbasov gecəyə yaxın odlu silahla qətlə yetirilib. Keçirilən əməliyyat tədbirləri nəticəsində hadisəni qəsəbə sakini, 1991-ci il təvəllüdlü Tural Zakir oğlu Əlizadənin törətdiyi müəyyənləşib. Şübhəli şəxs qismində saxlanılan T. Əlizadədən hadisə zamanı istifadə etdiyi "Vinçester" markalı silah götürülüb.**

Qətlin şəxsi münaqişə zəminində törədildiyi bildirilir. Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

Qeyd olunur ki, öldürülən şəxs-R.Abbasov Qobudakı "Qobu" adlı marketin sahibi olmaqla yanaşı, həm də torpaq alveri ilə məşğul olub. Mərhumun 2 övladı var.

O da qeyd olunur ki, əslində R.Abbasovla onun qətlində günahkar bilinən T. Əlizadənin atası Zakir Əlizadənin yaxşı münasibətləri olub.

Musavat.com xəbər verir ki, Abşeron rayon hüquq-mühafizə orqanları tərəfindən dindirilən 1991-ci il təvəllüdlü Tural Əlizadə əməlini etiraf edib. Onun sözlərinə görə, qətlə yetirilən şəxslə aralarında mübahisə olub. Hadisə günü kafedə görüşən tərəflər mübahisə edib. Daha sonra evə gedən Tural, əlində ov tüfəngi ilə geri qayıdıb. İlk atəşi havaya atan saxlanılan şəxs, son 4 patronu mərhuma vurub.

# Sumqayıtda qardaş bacısını qətlə yetirdi

**Sumqayıt şəhər sakini bacısını qətlə yetirib. Bu barədə "Report"a şəhər prokurorluğundan məlumat verilib. Məlumata görə, şəhərin "Saray bağları" ərazisində yaşayan 1992-ci il təvəllüdlü Şahbazov Pərviz İsmayıl oğlu bacısı 22 yaşlı Zümrüd Soltanovanı bıçaqla qətlə yetirib.**

Hadisənin qısqanclıq zəminində baş verdiyi ehtimal edilir.

Faktla bağlı şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, istintaq aparılır.



# "Nar" AICT-2016 beynəlxalq konfransına dəstək verdi

## Mobil operator "İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi" mövzusundakı elmi konfransda təmsil olundu

**12-14 oktyabr 2016-cı il tarixdə texnika sahəsində çalışan mütəxəssislərin beynəlxalq qeyri-kommersiya assosiasiyası olan və radioelektronika, elektrotexnika, hesablama sistemləri və şəbəkələri standartlarının hazırlanması sahəsi üzrə bir dünya lideri hesab edilən Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (Institute of Electrical and Electronics Engineers - IEEE) "İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi" (Application of Information and Communication Technologies - AICT-2016) mövzusundakı 10-cu beynəlxalq konfransı Azərbaycanda keçirildi.**

**Azərbaycan Respublikası Rabitə və yüksək texnologiyalar nazirliyi və Təhsil nazirliyinin dəstəyi ilə təşkil edilən üçgünlük elmi konfrans Qafqaz Universitetinin tədris binasında, Bakı Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunda keçirildi.**

**İnformasiya texnologiyalarının inkişafı və innovasiyalara xüsusi önəm verən "Nar" bu mötəbər tədbirə dəstək verərək, forumun təşkilatçıları arasında yer aldı. Konfransın açılış mərasimində çıxış edən "Azerfon" şirkətinin texniki və informasiya texnologiyaları üzrə baş müdiri Xəyyam Həsənli informasiya texnologiyaları sahəsindəki yeni trendlərin mobil rabitədə tətbiqi və innovasiyalara meyl edən "Nar" operatorunun bu sahədəki böyük və uğurlu təcrübəsindən söhbət açdı. Çoxsaylı yerli və xarici qonaqların iştirak etdiyi tədbir dəyərli elmi müzakirələr və geniş təcrübə mübadiləsi formatında keçirildi.**

YENİ MÜSAVAT
N 226 (6547) 13 oktyabr 2016

**Dünyanın bir çox inkişaf etmiş ölkələrində insanlar demək olar hər ay psixoloq xidmətinə müraciət edirlər. Qeyri-rəsmi statistikaya görə, mövcud xəstəliklərin 80 faizindən çoxu insanın psixikası və sinir sistemində yaranan problemlərlə bağlıdır. Bəs Azərbaycanda vəziyyət necədi?**

# “Əsasən maddi sıxıntılar insanların psixikasında ciddi narahatlıq yaradır”

## Psixiatr Nadir İsmayılov: “Bu dövrdə, belə bir şəraitdə, bu cür düzgün olmayan rejimlə stressə düşməmək mümkün deyil”

*“Report” Azərbaycan Tibb Universitetinin (ATU) psixiatriya kafedrasının professoru, psixiatr-həkim Nadir İsmayılovun müsahibəsini təqdim edir:*

***- Azərbaycanda psixiatrlara müraciət edənlərin sayının az olduğunu deyirlər. Sizcə, bunun səbəbləri nə ilə əlaqədardır?***

- Mən az olduğunu deməzdim. Mənim bəzən o qədər xəstəm olur ki, müraciət etdiyi gün onları qəbul edə bilmirəm. Hazırda Maştağadakı Psixi Sağlamlıq Mərkəzi 1850 çarpayılıq olsa da, orada 2200 xəstə var.

***- Elədirsə, ən çox hansı problemlərlə sizə müraciət olunur?***

- Son vaxtlar intihar hadisələri çoxalıb, depressiyaların sayı artıb. Həmçinin stresslə əlaqədar olan xəstliklər - “psixosomatik xəstəliklər” adlandırılan qruplarda artım var. Lakin şizofreniya, epilepsiya xəstələrinin sayında artım müşahidə olunmur. Ümumiyyətlə, deməliyəm ki, cəmiyyətdə baş verən hadisələrin bu cür xəstəliklərin sayının artımına təsiri çox böyükdür.

***- Qeyd etdiniz ki, intiharların sayı artır. Bunda psixoloji problemlər hansı rol oynayır?***

- Əlimizdə rəsmi statistika olmasa da, yayılan xəbərlərdən, müxtəlif məlumatlardan intiharların sayının günü-gündən artdığını görürük. Bəlkə də əvvəlki dövrlərə nisbətən 5-6 dəfə artdığını deyə bilərik.

İntiharların əsas səbəbi ictimai problemlərlə bağlıdır - əhali arasında olan gərginlik, gərgin həyat rejimi və s. Məsələn, çox insanlar banklara borclarını qaytara bilmədiklərinə görə depressiyaya düşürlər. Bəzən ailə büdcəsi aşağı olan insanlar arzuladıqları həyat tərzini sürə bilmədiklərinə görə depressiyaya düşürlər, bu cür hallar onların psixikasına mənfi təsir göstərir. Yəni əsasən maddi sıxıntılar insanların psixikasında ciddi narahatlıq yaradır.

Digər tərəfdən, ailə-məişət zəminində də intiharlar və xüsusilə qətl hadisələrinin də artdığını görürük. Bəzən internet, sosial şəbəkələr, mobil telefonların yaratdığı imkanlar ailə münaqişələrinə çevrilir. Fikir verin, 5 il əvvələdək ailə quranların yalnız bir neçə faizi ayrılırdı. İndi isə cütlüklər arasında boşananların sayı 30 faizə yüksəlib.

Bunların da hamısının psixoloji səbəbləri var. Araşdıranda, çox hissəsinin müasir yaşayış tərzinə və iqtisadi amillərə bağlandığını görürük.

***- Bir mütəxəssis kimi depressiya, stressdən qorunmağın yolları barədə hansı məsləhətləri verərdiniz? Ümumiyyətlə, depressiyanı xəstəlik kimi qiymətləndirmək olarmı?***



- Bu məsələdə ən önəmli məsələ düzgün rejimli həyat tərzidir. İnsan hər gün düzgün qidalanmalı, idman etməlidir. Həm fiziki, həm də mənəvi baxımdan istirahəti təmin etmək lazımdır, yəni kitab oxumaq, təmiz havada gəzmək vacibdir. Əks təqdirdə, bu dövrdə, belə bir şəraitdə, bu cür düzgün olmayan rejimlə stressə düşməmək mümkün deyil.

***- İnternetdən danışdınız. İnternetin həm də gənclərin psixologiyasına mənfi təsirindən gileylənirlər. Bu fikirlər nə dərəcədə haqlıdır?***

- Əlbəttə, internetin mənfi təsirləri mövcuddur. Təəssüf ki, bu məsələdə heç bir normaya əməl edilmir. Gənclər normadan qat-qat artıq internetdə olurlar, saatlarla, bəzən sutkalarla şəbəkədə vaxt keçirirlər. Uşaqlar üçün biz gündə 2 saatı norma kimi qəbul edə bilərik.

***- Uşaqlarda psixoloji problemlərin daha dərin yaşandığını deyirlər. Valideynlər uşağın hansı yaşında diqqətli olmalıdırlar? Və uşağın davranışında nəyə diqqət olunmalıdır?***

- Uşaqlarla məşğul olmaq psixologiyanın, pedaqogikanın böyük bir sahəsidir. Uşaq psixologiyası ilə təkcə biz psixiatrlar deyil, uşaq nevroloqları, psixoloqlar, pedaqoji işçilər, ictimai təşkilatlar, məktəblər də məşğul olurlar. Biz öz sahəmizə uyğun olaraq, uşaqda olan psixi narahatlığı aşkar edib müalicə etmək üçün psixo profilaktika aparılmasına, onlar üçün düzgün həyat rejiminin yaradılmasına diqqət yetiririk. Yəni uşaqların sağlam böyüməsində hər kəs iştirak etməlidir, bu proses hərtərəfli aparılmalıdır.

***- Psixologiya sahəsində kifayət qədər peşəkar kadrlar varmı, yetişdirilirmi?***

- Kifayət qədər olduğunu deyə bilməsəm də, əminliklə deyə bilərəm ki, yaxşı kadrların yetişdirilməsi prosesi gedir. Mən özüm də tələbələrlə işlərə çox diqqətlə yanaşıram. Tədris prosesi üçün çox önəmli olan praktikalara cəlb edirəm.

***- Bəzən deyirlər ki, dərmansız, sözlə sağalmaq mümkün deyil. Bu cür fikirlərə münasibətiniz necədir?***

- Sözlə müalicə - təbabət elminin bir qolu olan psixoterapiyada mövcuddur. Mərkəzi sinir sisteminin bütün funksional xəstəlikləri, psixosomatik xəstəliklər daha çox psixoterapiya ilə müalicə olunan xəstəliklərdir. Ən azı 100-ə qədər sindrom və xəstəliklər var ki, onlar psixoterapiya ilə daha yaxşı müalicə olunur. Bu sahədə Bexterev, Freyd kimi tanınmış alimlərin adlarını çəkmək olar.

Təəssüf ki, son zamanlar bizdə psixoterapiyanın tədrisinə diqqət azaldılıb. Ümid edirəm ki, ATU-da bundan sonra bu məsələyə diqqət artırılacaq.

# Azərbaycan millisindən növbəti zəfər-ümidlənəkmi?

**Azərbaycan milli komandası 2018-ci ildə Rusiyada keçiriləcək dünya çempionatının seçmə oyunları çərçivəsində səfərdə C qrupunun iddiaçılarından olan Çexiya yığmasından 1 xal almağı bacardı. Hazırda Azərbaycan millisi 7 xalla qrup ikincisidir. Almaniyadan 2 xal geri qalan milli komandamız ən yaxın izləyicisini-Şimali İrlandiyanı 3 xal qabaqlayır. Qrupun digər güclü yığmalarından olan Norveç yığmamızdan 4, Çexiya isə 5 xal geri qalır. C qrupunun sonuncusu aktivində xalı olmayan San-Marinodur. Əgər DÇ-18-in qrupları müəyyən olunarkən Azərbaycanın C qrupunda San-Marino ilə sonuncu pillələri bölüşdürəcəyi deyilirdisə, artıq 3 oyuna 7 xal toplayan, məğlubiyyət üzü görməyən, qapısını toxunulmaz saxlayan millimizin bu qrupdan çıxa biləcəyi ilə bağlı nəinki ölkə daxilində, xaricdə də fikirlər səslənməyə başlayıb. Millimizin növbəti oyunu gələn ayın 12-də Şimali İrlandiya ilə səfərdə olacaq. Futbol mütəxəssisləri bu oyunun Azərbaycan üçün qrupda ən həlledici oyun olduğunu bildirirlər. Bir xalın belə millimizə kifayət etdiyi deyilir. Çünki bu oyundan sonra milli komandamızın 4 ev oyunu qalacaq, digərləri səfərdə olacaq.**



**Natiq Muxtarlı:** “Bakıda keçirəcəyimiz oyunları qazanmağa çalışmalıyıq”



**Aydın Bağırov:** “Milli komandamızı daha ciddiyə alacaqlar”

**Komando.az saytının redaktoru Natiq Muxtarlı** bildirdi ki, Çexiya ilə oyun göstərdi ki, millimizin fiziki cəhətdən hazırlığı qaydasındadır: “Adətən 2-3 gündən bir keçirilən oyunlarda futbolçularımız zəif təsir bağışlayırdılar. Amma Çexiya ilə oyunda hətta rəqibi üstələdiyimiz məqamlar da oldu. İndiyə qədər qarşılaşdığımız rəqiblərin gücü istənilən səviyyədə deyil. Avropa çempionatından sonra Çexiya millisində bəzi dəyişikliklər oldu ki, bu da bizim işimizə yaradı. Bu il son oyunumuzu Şimali İrlandiya ilə keçirəcəyik. Növbəti ildə təbii ki, bu komandaların oyun keyfiyyəti xeyli artacaq. Ona görə də bu yığmalarla ikinci oyunumuz daha ağır olacaq. Bu baxımdan Çexiya ilə Bakıdakı oyun daha ağır olacaq. Öz üzərimizdə daha da işləməliyik. Komandanın oyun keyfiyyəti artırılmalıdır ki, uğurların davamı gəlsin. Hər şey yaxşıdır, bu oyunla Dünya Çempionatının finallarına qatılacağıq deməklə uğurların davamı gələ bilməz. Oyunumuzda problemlər var, bunları aradan qaldırmaq mütləq lazımdır. Ölkə çempionatının öncəliklə səviyyəsi qaldırılmalıdır. Əgər Şimali İrlandiya ilə səfər oyunundan sərfəli nəticə ilə qayıtsaq, böyük ölçüdə finallara qatılmaq şanslarımız artacaq. Ümid var, yaranıb, sadəcə, görüləcək işləri davam etdirmək lazımdır. Biz mütləq Bakıda keçirəcəyimiz oyunları qazanmağa çalışmalıyıq. Təbii ki, Almaniya ilə oyun çətindir. Amma unutmaq olmaz ki, Norveç və Şimali İrlandiya ilə səfər oyunlarından xalla dönə bilərik. Biz əvvəllər dəfələrlə Berti Foqtsun istefaya göndərilməsini tələb etdik. Amma AFFA rəhbərliyi bizim sözümüzə əhəmiyyət vermədi və onu 7 il baş məşqçi kimi saxladı. Biz deyirdik ki, kim gəlirsə gəlsin, nəticə qazanacaq. Göründü ki, doğru demişik”.

**Qol.az saytının baş redaktoru Aydın Bağırov qazanılan tarixi nəticələrlə bağlı bunları dedi:** “3 oyunda 7 xal - milli komandanızın beynəlxalq miqyasdakı rəsmi turnirlərdə çıxış etdiyi 22 il ərzində ən yüksək göstəricisidir. Komandamızın səviyyəsi aşağı olan futbolçularla qrupda ikinci olmasını yalnız alqışlamaq olar. Düzdür, çox hücum edə bilmirik, 3 oyuna cəmi 2 qol vurmuşuq, amma unutmayaq ki, 1 qol belə buraxmamışıq. Təsəvvür edin, özü də son oyunda əsas mərkəz müdafiəçimiz olan Rəşad Sadıqov çıxış etmirdi. Bununla belə, eyforiyaya qapılmamalıyıq. Rəqiblərimiz bundan sonra milli komandamızı daha ciddiyə alacaqlar. Bu gün millimizin 7 xal qazanması bir tərəfdən məşqçi işinə, futbolçuların əzmkarlığına görədirsə, digər tərəfdən də buna qədər rəqiblərimizin bizi ciddiyə almaması ilə əlaqədardır. Buna görə də millimizin növbəti - gələn ay səfərdə Şimali İrlandiya ilə keçirəcəyi oyun xüsusi maraq kəsb edir. Bilirsiniz ki, hazırda qrupda ən yaxın izləyicimiz məhz bu komandadır. Fikrimcə, rəqib meydanında 1 xal qazansaq, bunun özü də qələbəyə bərabər olacaq və ikinci yerdəki mövqeyimizi möhkəmləndirəcək. Yəni bugünkü durumda, faktiki olaraq, qrup ikinciliyinə iddia edə bilərik *(lider Almaniya aşkar favoritdir)*. Amma dediyim kimi, millimiz üçün ən çətin mərhələ hələ bundan sonra başlayır. Artıq bizə aşağı səviyyəli komanda gözü ilə baxmırlar. Rəqiblər bizi ciddiyə alacaqlar. Bizim üçün əsas üstünlüklərdən biri odur ki, komandada indiyədək heç vaxt olmadığı qədər ruh yüksəkliyi var. Komanda çox hücum etməsə də, səliqəli oynayır. Xüsusən müdafiədə. Ümumilikdə, Almaniya ilə hər iki oyunu çıxmaqla, digər oyunların hamısından komandamızın xal qazanacağını gözləyirəm. Bir daha deyirəm, Şimali İrlandiya ilə növbəti oyunumuz çox önəmlidir. Ən azı bir xal qazansaq, ikinci yer üçün oynayıb dünya çempionatının pley-off mərhələsinə vəsiqə qazanmaq şansımız daha da artacaq”.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
Son səhifə
N 226 (6547) 13 oktyabr 2016




**QOÇ** - İş və maddi durum yol versə, evinizə təzə əşya və ya özünüzə geyim alın. Bunun sizə böyük əhəmiyyəti dəyəcək. Əks cinslə münasibətlərdə mülayim mövqe nümayiş etdirin. Yağlı qidalardan çəkinin.

**BUĞA** - Pulla bağlı problemləri nəzərə almasaq, bu gün hansısa çətinliyiniz olmayacaq. Bir qədər qənaətcil olun. Günorta saatlarından başlayaraq şəxsi işlərinizdə əsaslı dönüş baş qaldırmalıdır.

**ƏKİZLƏR** - İnsanlara etibarsızlıq etməyin, planlarınızın reallaşmasında isə mənasız yerə riskə getməyin. Yalnız bu halda günün ümumi uğurlarını özünüzə cəlb edə bilərsiniz. Gecə qalmamaq şərtilə səfər etmək olar.

**XƏRÇƏNG** - Bu gün əsas vaxtınızı səhhətinizə yönəltməlisiniz. Çox güman ki, neçə vaxtdan bəri gərilən əsəbləriniz özünü bir az da qabardacaq. Müalicə səmərəli olar. Axşama doğru yaxşı xəbərlərə hazır olun.

**ŞİR** - Fəaliyyət dairənizi genişləndirmək üçün qarşınıza çıxan bütün şanslardan istifadə edin. Saat 16-dan sonra varlanma ehtimalınız olduğu üçün bütün mümkün variantlardan yararlanın. Sözübütöv olun.

**QIZ** - İstər qarşılıqlı münasibətlərdə, istər ailə-sevgi məsələlərində, istərsə də maliyyə sahəsində uğurlarınız artmalıdır. Amma istənilən sövdələşmə və müzakirələrdə ölçülü-biçili addımlar atmalısınız.

**TƏRƏZİ** - Qarşınızda ilahi bir gün var. Bu səbəbdən mübahisələrdən yayınmalı, qeyri-ciddi adamlarla oturub-durmamalısınız. Yalan vədlər verməyin. Uzaq səfərləri isə mümkün qədər təxirə salın.

**ƏQRƏB** - Fəaliyyət zəminində müəyyən mənada gərginliklər ola bilər. Ona görə də riskli və qeyri-ənənəvi heç bir işə həvəs göstərməyin. Bu gün uzaq səfərləri mümkün qədər təxirə salın. Bəxtinizdə pul var.

**OXATAN** - Üzərinizə düşən başlıca vəzifə mövqelərinizi qətiləşdirmək, tərəfdaşlarınızı sınamaq və yeni layihələri reallaşdırmaq üçün sövdələşmələr aparmaqdır. Fəaliyyətinizə mane olan məşğuliyyətdən uzaqlaşın.

**OĞLAQ** - Yaxın adamlarla, qohum-qonşularla münasibətləri tənzimləyin. İndi sizin enerji məhz bu müstəvidən qidalanacaq. Amma yeni işlərə pul qoymaq, kimlərəsə ciddi məbləğdə borc vermək sizlik deyil.

**SUTÖKƏN** - Döyüş taktikasına görə, ilk hücum edən qələbə çalır. Siz də haqq işinizin uğurlu nəticəsi üçün ilk addımı özünüz atmalısınız. Proqnozlara gəlincə, nahardan sonra maraqlı təkliflər olmalıdır.

**BALIQLAR** - Ağır fiziki işlərdən, riskli sövdələşmələrdən və uzaq səfərlərdən imtina edin. Ailə-sevgi münasibətlərində isə yol verdiyiniz səhvləri düzəltməyə çalışın. Maliyyə problemlərinizi təcili çözün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**



## Hər səhər 4 stəkan su içən adamlar...

Çox qədim tarixi olan yapon su terapiyası bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Yapon su terapiyası qastrit, diabet, yüksək təzyiq, astma, qəbzlik, ishal, göz xəstəlikləri, babasil, bronxit, vərəm, ürək problemləri, epilepsiya, qulaq-burun-boğaz xəstəlikləri, artrit, xərçəng, menstruasiya nizamsızlığı, böyrək və sidik yolları narahatlıqları kimi bir çox olduqca ciddi və yayılmış xəstəliklərlə mübarizədə istifadə edilən üsuldur.

Boş mədəyə su içməklə başlayan yapon su terapiyası səhər yuxudan oyanan kimi ilk iş olaraq yerinə yetirilməlidir. Dişlərinizi fırçalamazdan əvvəl 640 ml. (təxminən 4 stəkan) su için. Suyun florid tərkibli olmamasına diqqət yetirin. Dişlərinizi fırçalayıb ağzınızı təmizləyin. Amma 45 dəqiqə heç bir şey yemək olmaz. Ondan sonra hər zamankı kimi səhər yeməyinizi yeyin. Səhər yeməyindən sonra iki saat heç nə yeməyin. Yapon ənənələrinə görə, su bir az ılıq olmalıdır, nə soyuq, nə də otaq istiliyində olmamalıdır. Uzaq Şərqdə insanlar yemək zamanı heç vaxt soyuq su içmirlər. Bunun yerinə isti çay tövsiyə edilir.

Əgər səhər yuxudan oyanan kimi bu qədər su içməyə əziyyət çəkirsinizsə, iki stəkanla başlayıb, vaxt keçdikcə 4 stəkana qədər artıra bilərsiniz. Böyrəklərimiz saatda 800-1000 ml su süzə bilmək qabiliyyətinə malikdir. Buna görə də bir dəfəyə 4 stəkandan çox su içmək böyrəklərə zərər verə bilər.

## İş masasında yemək insanı öldürür



Alimlərin apardıqları tədqiqata əsasən, bütün dünyada onlarla insanın ölümünə az hərəkətli həyat tərzi səbəb olur. Fiziki fəallığın çatışmazlığı qan laxtalarının yaranmasına gətirib çıxarır. Tədqiqatlar göstərir ki, gün ərzində 10 saat işləyən 21-30 yaşlarında insanların təxminən 75 faizi fasilələyə çıxmaqdan imtina edir ki, bu da dərin venalarda tromboz əmələ gəlməsi təhlükəsini əhəmiyyətli dərəcədə artırır. Mütəxəssislər qeyd edirlər ki, hazırda dünyada yaşı 40-dan az olan tromboz qurbanlarının sayı sürətlə artır. Eyni zamanda trombozla bağlı bir çox hallar diaqnozlaşdırılmayıb. Həkimlərin məsləhətlərinə görə, trombozdan müdafiə olunmağın ən səmərəli üsulu hərəkətli olmaqdan, siqaretdən imtina etməkdən, duz və yağdan istifadəni azaltmaqdan ibarətdir.

## Klintonun "oğlu" Amerikanı bir-birinə qatıb




**ABŞ-ın Arkanzas ştatının qaradərili sakini özünü keçmiş prezident Bill Klintonun nikahdankənar oğlu adlandırır. 30 yaşlı Denni Uilyams bu barədə Britaniyanın tanınmış nəşri olan "Daily Mail"ə açıqlama verib. Onun sözlərinə görə, zamanında anası fahişəliklə məşğul olub və B.Klintonla 13 dəfə münasibətdə olub. 1985-ci ildə yaşanan bu münasibət nəticəsində qadın hamilə qalıb. Qadın özü qara dərili olsa da, doğulan uşaq ağ rəngdə olduğu üçün atasının B.Klinton olduğuna əmin olub. Uilyams özü isə deyir ki, yeganə arzusu atasını yaxından tanımaq olub. Məqalədə eyni zamanda qeyd olunur ki, Arkanzas ştatının bir çox sakinləri həqiqətən də Dennini Klintonun oğlu hesab edir. Çünki B.Klinton 1983-cü ildən 1992-ci ilə qədər sözügedən ştatın qubernatoru olub. Məlumatlarda o da qeyd olunur ki, uşaqlığında anası oğlunu Klintonun yaşadığı evə apararaq, onların tanış olmasını istəyib. Amma həmin vaxt orda olan xanımı Hillari qapını ana-balanın üzünə bağlayıb.**

"Daily Mail"in xəbərinə görə, ilk dəfə 1999-cu ildə Arkanzas ştatının sakini "ehtimal olunan" atası barədə geniş ictimaiyyətə açıqlama verib. Amma həmin vaxt Klintonun DNK (atalıq analizi) üçün razılıq verdiyi, lakin analiz nəticəsində gənc oğlanın onun oğlu olmadığı üzə çıxıb. Denni isə iddia edir ki, ondan hər hansı analiz götürülməyib.

2015-ci ilin dekabrında isə Uilyams facebookda səhifə açıb. Orda özü və B.Klintonun fotolarını yanaşı qoyaraq, kollaj edib. Bununla da onunla bir-birinə necə bənzədiyini nümayiş etdirməyə çalışıb. O, eyni zamanda tvitter hesabındakı videomüraciətlərində tək arzusunun atası ilə görüşmək olduğunu deyir.

## Siçanlar da danışmağı öyrənəcək



Amerikalı mütəxəssislər müəyyənləşdirib ki, siçanlar da quşlar və insanlar kimi mahnı oxumağı öyrənə bilirlər. Araşdırmalara görə, birlikdə yaşayan erkək siçanlar bir müddət sonra səslərini bir-birinə uyğunlaşdırırlar. Bundan başqa, siçanların da beynində quşlarda və insanlarda olduğu kimi eşidilən səsləri öyrənmək üçün bir davranış mexanizmi var. Bununla bağlı daha öncə aparılan bir araşdırmada qeyd olunmuşdu ki, erkək siçanlar cütləşmə zamanı dişi siçanı tovlamaq üçün qəribə səslər çıxarır. Bu, insanın eşidə bilməyəcəyi qədər zəif səs olsa da, incələmə zamanı onun ağlamsınaraq oxunan mahnıya bənzədiyi üzə çıxıb. Amma siçanların da beynində səslərin tənzimlənməsi üçün hissələr var və onlar beynin ön hissəsində yerləşir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 4.750